**D İ Q Q Ə T !**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*
***QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 153 (6117) 4 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## UNEC-in yenidən inşa olunan 3 saylı tədris korpusu istifadəyə verilib

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*



*Bax 2*

## BERNAMA agentliyi: Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəsinin inkişafına böyük töhfələr verir

Malayziyanın BERNAMA dövlət informasiya agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə yayıb. "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəsinin inkişafına böyük töhfələr verir" sərlövhəli məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edilir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr...




*Bax 4*

## BMT Baş Assambleyasının sədri Azərbaycana minnətdarlıq edib



"Biz Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycana bu çox mühüm sessiyanın keçirilməsinə təkid etdiyi üçün, BMT Baş Assambleyasına isə sessiyanın keçirilməsinə razılıq verdiyi üçün minnətdarıq. Baş Assambleyanın...

*Bax 3*

## Rasim Quliyev: "Azərbaycan Ermənistanın məskunlaşdırma siyasəti ilə bağlı hər bir faktı sənədləşdirməlidir"

*Bax 5*



"Ümumiyyətlə, hələ 200 il bundan öncə çar Rusiyasının İrandan, Suriyadan, Livandan, Türkiyə ərazisindən erməniləri köçürüb indiki Ermənistan ərazisində yerləşdirməsi siyasəti nəticəsində bir oyuncaq dövlət yaradılıb...

## Prezidentin köməkçisi insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşüb



Sentyabrın 3-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev QHT-hökumət dialoqu çərçivəsində insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən 68 QHT-nin rəhbəri ilə görüş...

*Bax 5*

## "BMT Ermənistan qarşısında konkret suallar qoyub"

## NewsRu: "Ermənistan Moldovaya arxadan zərbə endirib"

Bir neçə gün bundan əvvəl Transnistriyanın qondarma "paytaxtı" Tiraspolda növbəti təxribatçı tədbir - heç kəs tərəfindən tanınmamış "Dnestryanı Moldova Respublikası"nın...



*Bax 6*

## Müxalifətçi fəal Əli Kərimlini "şarlatan" adlandırdı



*Bax 14*

## "News Blaze" nəşri: "Ermənistan üçüncü tərəfin köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionuna və yeddi ətraf rayona soxulub"




*Bax 10*

## Messinin atası danışdı: "Oğlum "Barselona"da qalmır"



*Bax 16*

# UNEC-in yenidən inşa olunan 3 saylı tədris korpusu istifadəyə verilib

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*

***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusu yenidən inşa olunaraq istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Murtuza Muxtarov küçəsində yerləşən yeni tədris korpusunun açılışında iştirak ediblər.***











Dövlətimizin başçısı və birinci xanım tədris korpusunda yaradılan şəraitlə tanış oldular. Təhsil naziri Emin Əmrullayev və UNEC-in rektoru Ədalət Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, tikintisinə 2018-ci ildən başlanılan və müasir standartlara cavab verən yeni tədris korpusu köhnə binanın fasadı saxlanılmaqla inşa edilib. Müasir kampus standartlarına cavab verən, modern memarlıq elementləri ilə zəngin olan, 4 binadan ibarət yeni tədris korpusunda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. Binada 30 auditoriya, 6 mühazirə, 6 linqafon otağı, ən müasir texnoloji avadanlıqla təchiz olunan 14 laboratoriya, geniş idman zalı, ikimərtəbəli kitabxana, böyük və kiçik konfrans zalları var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

# ABŞ-ın "Foreign Policy News" nəşri: Azərbaycan Prezidenti xəbərdarlıq edir ki, heç kəs qanundan üstün ola bilməz

***ABŞ-ın "Foreign Policy News" nəşri Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında Prezident İlham Əliyevin videoformatda çıxışı haqqında AZƏRTAC-a istinadən məqalə dərc edib.***

Məqalədə bildirilir ki, Prezident İlham Əliyev həmin çıxışında koronavirus pandemiyası dövründə karantin rejimi qaydalarına ciddi yanaşmayanlara xəbərdarlıq edib. Həmçinin məqalədə Prezident İlham Əliyevin çıxışından qanunun aliliyi ilə bağlı aşağıdakı sitatlar gətirilir:

"Əfsuslar olsun ki, bu gün hələ də bu vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar da mövcuddur və qaydaların kobudcasına pozulması halları da vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyalardan olan insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".

"Görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVID-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, biz məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatını qoruduq".

"Əminəm ki, birgə səylər nəticəsində, həm də bundan sonra dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq".




Qeyd edək ki, koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalın açılışında Prezident İlham Əliyevin çıxışı əsasında məqalələr AZƏRTAC-a istinadla "The Baltic Course" onlayn jurnalı, Avropa İttifaqının "Bridge", Rumıniyanın "News24hours", Qazaxıstanın "Newsroom", Gürcüstanın "Geotimes", "Newsday" portalları, Misirin "Asiaelyoum" informasiya agentliyi tərəfindən də yayılıb.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışında iştirak ediblər









***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 3-də Bakının Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əsaslı təmirdən sonra binada yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin yerləşdiyi bina 1904-cü ildə inşa edilib. Ötən 116 ildə bina müxtəlif dövrlərin reallıqlarını yaşayıb: hospital, ümumtəhsil məktəbi, 1940-cı ildən isə musiqi məktəbi kimi fəaliyyət göstərib. Binanın memarlıq üslubu və fasadının ilkin görünüşü saxlanılmaqla Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildə əsaslı təmir olunub.

Hazırda məktəbdə fortepiano, skripka, gitara, klarnet, saksofon, vokal, xanəndə, tar, kamança, qarmon, nağara, rəssamlıq, xoreoqrafiya, nəzəriyyə və tədris köməkçi fənləri ixtisasları üzrə 385 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur. Məktəbin səs izolyasiyasına xüsusi diqqət yetirilən bütün tədris otaqları əyani vəsaitlərlə təmin olunub. İncəsənət məktəbinin ikimərtəbəli binasında 15 fərdi tədris otağı, nəzəriyyə otaqları, kitabxana, dərzi otağı, konfrans zalı, rəssamlıq otaqları, xoreoqrafiya zalı, yeməkxana və səsyazma studiyası fəaliyyət göstərir. Məktəbdə Vaqif Mustafazadə guşəsi yaradılıb. Vaqif Mustafazadənin şəxsi əşyalarının olduğu bu guşədən həm də tədris otağı kimi istifadə ediləcək.

Qeyd edək ki, dünya şöhrətli caz ustası Vaqif Mustafazadə 1949-1956-cı illərdə burada fortepiano ixtisası üzrə təhsil alıb. Azərbaycanın bir sıra görkəmli bəstəkarları və incəsənət xadimləri bu məktəbin yetirmələri olublar.

# BMT Baş Assambleyasının sədri Azərbaycana minnətdarlıq edib

***“Biz Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycana bu çox mühüm sessiyanın keçirilməsinə təkid etdiyi üçün, BMT Baş Assambleyasına isə sessiyanın keçirilməsinə razılıq verdiyi üçün minnətdarıq. Baş Assambleyanın pandemiyaya həsr olunan xüsusi sessiya keçirməsi ilə bağlı təklif COVID-19-a qarşı qlobal öhdəliyi səfərbər etmək baxımından etibarli platformadır”. SİAxəbər verir ki, bu sözləri BMT Baş Assambleyasının sədri Ticcani Məhəmməd-Bande Baş Assambleyanın COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr edilmiş 31-ci xüsusi sessiyasının təfərrüatları üzrə qətnamə layihəsi ilə əlaqədar keçirilən ilk qeyri-rəsmi məsləhətləşmə zamanı bildirib.***

“Bizim koordinatorlar sizin əməkdaşlığınız və dəstəyinizlə danışıqlar üçün möhkəm zəmin yaradan gözəl layihə hazırlayıblar.



İnanıram ki, xüsusi sessiya daha çox sayda dünya liderlərinin pandemiyaya nəticəyönümlü reaksiya verməsinə şərait yaradacaq. Bu isə öz növbəsində, pandemiyaya və onun insanların həyatına və həyat şəraitinə mənfi təsirlərinin azaldılmasına qarşı mübarizədə Baş Assambleyanın qlobal bir tərəfdaş kimi rolunu daha da gücləndirəcəkdir”, - deyə Ticcani Məhəmməd-Bande qeyd edib.

BMT Baş Assambleyasının sədri inandığını bildirib ki, bu xüsusi sessiya beynəlxalq ictimaiyyətin pandemiyaya qarşı əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsi üçün gözəl imkan olacaq. “BMT-nin üzvü olan çoxsaylı dövlətlərin xüsusi sessiyanın uğurla baş tutmasına göstərdiyi maraq məni çox sevindirir və bu sessiyanın təşkilinə töhfələrini vermiş şəxslərə minnətdarlığımı bildirirəm”, - deyə o əlavə edib. Ticcani Məhəmməd-Bande, eyni zamanda, BMT-nin bütün üzv dövlətlərini bu proses zamanı koordinatorlarla əməkdaşlıq ruhunda daha yaxından işləməyə çağırıb: “Hamınızı pandemiya problemini həll etmək üçün detallarla bağlı təcrübə mübadiləsi aparmaq üçün əlverişli platforma olaraq bugünkü müzakirələrdən yararlanmağa dəvət edirəm. Mövcud vəziyyət bizim COVID-19 virusuna qalib gəlməyimiz üçün birlikdə işləməyimizi və çoxtərəfli əməkdaşlığı gücləndirməyimizi zəruri edir”.

Sədr deyib: “Hamı üçün daha yaxşı dünya qurmağa çalışdığımız bir vaxtda BMT Baş Assambleyası davamlı inkişaf üçün qlobal tərəfdaşlıqların möhkəmləndirilməsində sizin tərəfdaşınız olaraq qalacaq”.

# Prezident İlham Əliyevin Türkiyəyə dəstəyi qardaş ölkənin KİV-lərinin manşetində













***Prezident İlham Əliyevin sentyabrın 2-də Yunanıstanın Azərbaycandakı yeni səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən Türkiyəyə dəstəklə bağlı söylədiyi fikirlər qardaş ölkənin kütləvi informasiya vasitələrinin manşet xəbərinə çevrilib.***

SİA xəbər verir ki, Anadolu və İHA agentlikləri, TRT HABER, CNN TÜRK, A HABER, TGRT HABER televiziya kanalları, “Milliyet”, “Hürriyet”, “Sözcu”, “Takvim”, “Star” və digər qəzetlər “Azərbaycan Prezidenti Əliyevdən Türkiyəyə dəstək”, “Azərbaycandan Türkiyəyə Şərqi Aralıq dənizi dəstəyi: tərəddüdsüz dəstəkləyirik!”, “Prezident Əliyev yunan səfirin üzünə söylədi: Aralıq dənizində Türkiyəni tərəddüdsüz dəstəkləyirik”, “Nazir Çavuşoğludan Azərbaycan Prezidenti Əliyevə Şərqi Aralıq dənizi ilə bağlı təşəkkür”, “Azərbaycandan Türkiyəyə Şərqi Aralıq dənizi dəstəyi”, “Azərbaycan Prezidenti İlham Əliyevdən Şərqi Aralıq dənizi mesajı: Türkiyəni tərəddüdsüz dəstəkləyirik” və digər sərlövhəli xəbərlərlə türkdilli oxucuları mövzu ilə bağlı məlumatlandırıblar.

“Ermənistan ilə hərbi əməkdaşlıq Azərbaycana qarşı ciddi təhdiddir”, “Bütün hallarda Türkiyəni dəstəkləyirik” kimi alt başlıqların yer aldığı materiallarda Prezident İlham Əliyevin aşağıdakı fikirləri diqqətə çatdırılır: “Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq. Toxunulası bir müsbət məsələ tapmaq istəyirəm, amma əfsuslar olsun ki, tapa bilmirəm. Ola bilsin, biz ümid edirik ki, Yunanıstanın nisbətən bu yaxınlarda iqtidara gəlmiş yeni hökuməti əvvəlki hökumətin Azərbaycana qarşı siyasətini yenidən nəzərdən keçirəcək və biz təmasları bərpa edə, müsbət dinamika yaradan məsələləri müzakirə edə bilərik”.

TRT HABER, A HABER və digər televiziya kanalları xəbər buraxılışlarında mövzu ilə bağlı xüsusi reportajlar yayıblar. Bu reportajlarda tarixi köklərə bağlanan Azərbaycan-Türkiyə münasibətlərinin əhəmiyyətindən danışılıb, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərini tərənnüm edən, eləcə də iki ölkənin liderliyi ilə həyata keçirilən beynəlxalq iqtisadi layihələrlə bağlı mərasimlərə dair kadrlar nümayiş olunub.

Qeyd edək ki, Türkiyənin yüksək səviyyəli rəsmiləri dövlətimizin başçısına bu dəstəyə görə minnətdarlıq ediblər. Xarici işlər naziri Mövlud Çavuşoğlu “Twitter” səhifəsindəki paylaşımında deyir: “Çox təşəkkür edirəm cənab Prezident! Can Azərbaycanın dəstəyinə heç vaxt şübhəmiz olmadı. Türkiyə də həmişə tərəddüdsüz Azərbaycanın yanında olacaq”. Nazir, həmçinin ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamını qeyd edərək dövlət bayraqlarımızın qoşa təsvirini paylaşıb. Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın isə “Twitter” səhifəsində “Bir millət, iki dövlət, bütün dünyaya örnək” paylaşımını edib.

***Sabir Şahtaxtı***




## BERNAMA agentliyi: Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəsinin inkişafına böyük töhfələr verir

***Malayziyanın BERNAMA dövlət informasiya agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə yayıb. “Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəsinin inkişafına böyük töhfələr verir” sərlövhəli məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edilir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr diqqətə çatdırılır.***

AZƏRTAC-ın “Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır” sərlövhəli məqaləsi əsasında hazırlanan yazıda bildirilir ki, Mehriban Əliyevanın fəaliyyəti beynəlxalq aləmdə yüksək qiymətləndirilir, o, bir sıra beynəlxalq təşkilatların və ölkələrin yüksək mükafatlarına layiq görülüb.

Birinci vitse-prezident Azərbaycanın inkişafına, ölkənin beynəlxalq miqyasda tanıdılmasına, xalqın sosial problemlərinin həllinə mühüm töhfələr verir.

Yazıda vurğulanır ki, gördüyü işlər Mehriban Əliyevaya Azərbaycan xalqının böyük hörmət və məhəbbətini, inam və etimadını qazandırıb.

Qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələrAZƏRTAC-a istinadla Çinin “China Daily” qəzeti, Avropa İttifaqının “EU Politics”, İtaliyanın “Eurasianews” portalları, Avropa Xəbər Agentliyi, Türkiyənin, Qazaxıstanın, Rumıniyanın, Moldovanın, Bolqarıstanın, Xorvatiyanın, İndoneziyanın, Yunanıstanın, Rusiyanın, Qırğızıstanın, Özbəkistanın, Yaxın Şərq və Şimali Afrika ölkələrinin kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

## Mövlud Çavuşoğlu: Türkiyə həmişə tərəddüdsüz Azərbaycanın yanında olacaq

***Çox təşəkkürlər edirəm cənab Prezident! Can Azərbaycanın dəstəyinə heç vaxt şübhəmiz olmadı. Türkiyə də həmişə tərəddüdsüz Azərbaycanın yanında olacaq.***




AZƏRTAC xəbər verir ki, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu “Twitter” sosial hesabında Prezident İlham Əliyevin sentyabrın 2-də Yunanıstanın ölkəmizə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən ifadə etdiyi “Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik” fikrinə belə bir şərh yazıb. Nazir, həmçinin ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” ifadəsini xatırladaraq dövlət bayraqlarımızın qoşa təsvirini də paylaşıb.

# Prezidentin köməkçisi insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşüb

***Sentyabrın 3-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev QHT-hökumət dialoqu çərçivəsində insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən 68 QHT-nin rəhbəri ilə görüş keçirib.***



Bu barədə AZƏRTAC-a QHT-lərə Dövlət Dəstəyi Şurasının mətbuat xidmətindən məlumat verilib. Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, insan hüquqlarının müdafiəsi QHT-lərin əsas fəaliyyət istiqamətlərindən biridir. Dövlətimiz üçün milli maraqlarımızın yerli və beynəlxalq səviyyədə qorunmasında vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakının təmin edilməsi, Ermənistanın 1 milyondan çox vətəndaşımızın fundamental hüquqlarını pozmasının dünya ictimaiyyətinə səmərəli şəkildə çatdırılması, mərkəzi və yerli icra qurumlarının fəaliyyətində şəffaflıq və aşkarlığın artırılması, ictimai nəzarətin gücləndirilməsi prioritet təşkil edir. Buna görə də Şura daima insan hüquqlarının qorunması, demokratik proseslərin dəstəklənməsi və araşdırma sahəsində fəaliyyət göstərən QHT-lərin təşəbbüs və layihələrini maliyyələşdirir. Şura sədri Prezidentin köməkçisi Hikmət Hacıyevin qeyd olunan istiqamətdə ixtisaslaşmış QHT-lərlə bugünkü dialoqunun onların fəaliyyəti üçün əlavə stimul olacağına və müxtəlif formatlarda bu dialoqun bundan sonra da davam edəcəyinə inandığını bildirib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev indiyədək QHT-lərlə keçirdiyi görüşlərdə 200-dən artıq təşkilatın iştirak etdiyini deyib. Hikmət Hacıyev QHT-hökumət dialoqunun ictimai sektorun fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun şəkildə qurulması üçün yeni yanaşmaların müəyyən edilməsi baxımından xüsusi önəm daşıdığını bildirib. H.Hacıyev bu dialoqun Prezident İlham Əliyevin vətəndaş cəmiyyətinin, ictimai nəzarətin daha da gücləndirilməsi, dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlığın artırılması, insan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması ilə bağlı siyasi iradəsinin növbəti təzahürü olduğunu bildirib.

Hikmət Hacıyev insan hüquqlarının qorunmasının ümumbəşəri məsələ olmasına baxmayaraq bu sahədə çalışan bir sıra beynəlxalq qurumların Ermənistanın 30 ildən artıq müddətdə Azərbaycan vətəndaşlarının hüquqlarını kobud şəkildə pozması faktına ədalətli və qaneedici səviyyədə münasibət bildirmədiyini qeyd edib. Prezidentin köməkçisi insan hüquqları ilə bağlı selektiv deyil, obyektiv və qərəzsiz mövqe tutan yerli və beynəlxalq təşkilatlarla dialoqa hər zaman açıq olduğunu deyib.

Hikmət Hacıyev beyin mərkəzlərinin müəyyən dövlətlərin, regionun və dünyanın müxtəlif problemlərini tədqiq və təhlil edərək müvafiq təşkilatlara tövsiyələr verən əhəmiyyətli intellektual institutlar olduğunu vurğulayıb. Prezidentin köməkçisi Azərbaycan QHT-lərinin də bu istiqamət üzrə ixtisaslaşmasının və xarici həmkarları ilə beynəlxalq əməkdaşlığı genişləndirməsinin vacib olduğunu deyib.

Görüşdə "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mayis Əliyev, Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli, "Güzəran" Sosial Araşdırmalar İctimai Birliyinin sədri Qadir İbrahimli, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqov, Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan Milli Platformasının koordinatoru Şəhla İsmayıl, "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov, Psixoloji Xidmət və Tədqiqatlar İctimai Birliyinin sədri Təranə Paşayeva, "Tərəqqi və Demokratiya" İctimai Birliyinin sədri Əhməd Qəşəmoğlu, "ELS - Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri İradə Yaqubova, "Jurnalist Ekspert Mərkəzi" İctimai Birliyinin sədri Ceyhun Musayev, İctimai Problemlərin Tədqiqi Assosiasiyasının sədri Məhərrəm Zülfüqarlı, Elmi Tədqiqat "Qafqaz Tarixi Mərkəzi" İctimai Birliyinin sədri Rizvan Hüseynov, "Spektr" sosial-iqtisadi araşdırmalar və inkişaf İctimai Birliyinin sədri Ramil Abbasov, "Mediada İnnovativ Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri Müşviq Ələsgərli, "Bakı Natiqlik Məktəbi" İctimai Birliyinin sədri Elçin Mirzəbəyli, Soyqırım Həqiqətlərinin Tanıdılması İctimai Birliyinin sədr müavini Anar Əliyev, "Oğuz" Müstəqil Araşdırmaçılar Qrupu İctimai Birliyinin sədri Vüqar Ziferoğlu, Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyinin sədri Xalid Kazımov, "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyinin sədri Kamil Səlimov, "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev, "Hüquqşünas Qadınlar Assosiasiyası" İctimai Birliyinin sədri Xanım Əhmədzadə, İnsan Hüquqları və Maarifçilik İctimai Birliyinin sədri Rəfail Becanov, "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyinin sədri Səməd Vəkilov, Azyaşlıların hüquqi maarifləndirməsinə kömək İctimai Birliyinin sədri Nazlı Zeynalova, "Hüquqi Yardım" İctimai Birliyinin sədri İlqar Qasımov, "Vətəndaş İştirakçılığının Təşviqinə Dəstək" İctimai Birliyinin sədri Taleh Əliyev, Demokratiyanın İnkişafı Problemləri Mərkəzi İctimai Birliyinin sədri Mütəllim Rəhimov, "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimov, "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzinin sədri Rafiq İsmayılov, "Qloballaşan Azərbaycan" Sivil İnkişaf Mərkəzi İctimai Birliyinin sədri Anar Əsədli, "Demokratiyanı Öyrənmə" İctimai Birliyinin sədri Mirəli Hüseynov, "Elmi Araşdırmalar" İctimai Birliyinin sədri Telman Qasımov, Demokratik İslahatçı Gənclər İctimai Birliyinin sədri Vüsalə Hüseynli, "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyinin sədri Zaur Qəriboğlu, "Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Aqil Ələsgər, Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyinin sədri Asəf Quliyev, "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyinin icraçı direktoru Elşad Məmmədli, "Qadın Liderliyi Uğrunda" İctimai Birliyinin sədri Ülkər Abdullayeva, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə, "Aktor" İctimai və Sosial Tədqiqatlar İctimai Birliyinin sədr müavini Telman İsa, Sosial Rifah və Tədqiqatlar İctimai Birliyinin sədri Əkrəm Bəydəmirli, Avrasiya Hüquqşünaslar Assosiasiyası İctimai Birliyinin sədri Cavid Hüseynli, "Qadın Konsensus Mərkəzi" İctimai Birliyinin sədri Aynur Camal, Media və Mülki Cəmiyyət İctimai Birliyinin sədri Xanoğlan Əhmədov, "Hüquqi və Demokratik İslahatlar Mərkəzi" İctimai Birliyinin sədri İlham Əliyev, "Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" İctimai Birliyinin sədri Nadir İsmayılov, Azərbaycan Demokratik Jurnalistlər Liqası İctimai Birliyinin sədri Yadigar Məmmədli, Tərəfsiz Jurnalistlər İctimai Birliyinin sədri Elşad Eyvazov, "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri Aqil Camal, "Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Elməddin Muradov, "Ruh" Jurnalistlərin Müdafiəsi İctimai Birliyinin sədri Əvəz Rüstəmov, "Yeni Fikir" Jurnalist Həmrəyliyi İctimai Birliyinin sədri Elmira Mehdiyeva, "Əks-Səda" Beynəlxalq Jurnalist Tədqiqatları Mərkəzi İctimai Birliyinin sədri Sevinc Kərimova, "İnnovativ Media" jurnalistlərin peşəkarlığının artırılmasına dəstək İctimai Birliyinin sədri Aynur Nəsirova, "Dinc Dünya" Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Əlisafa Mehdiyev, "Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri Cavid Şahverdiyev, Azərbaycan Ormitoloji Mərkəzinin sədri Elçin Sultanov, Ahıl Ziyalılara Qayğı İctimai Birliyinin sədri Nəsrulla Nurullayev, İnsan Hüquqları üzrə Maarifləndirmə İctimai Birliyinin sədri İradə Cavadova, Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin sədri Arzu Abdullayeva, Hüquqi Təşəbbüslər Mərkəzi İctimai Birliyinin sədri Ziya Quliyev, "İnternyus Azərbaycan" İctimai Birliyinin sədri İlham Səfərov, Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzinin (DEVAMM) sədri İlqar İbrahimoğlu, "Müasir İnkişaf" İctimai Birliyinin sədri Mübariz Göyüşlü, Azərbaycan İnsan Hüquqlarının Müdafiəsi Mərkəzinin sədri Eldar Zeynalov, İctimai Yayım və Monitorinq Mərkəzi İctimai Birliyinin sədri Ələsgər Məmmədli və İnsan Haqları Klubu İctimai Birliyinin sədri Rəsul Cəfərov iştirak edib.

Görüşdə çıxış edən QHT rəhbərləri hökumətin QHT-lərlə belə geniş formatda başladığı dialoqun vacib olduğunu vurğulayaraq belə təşəbbüsün irəli sürülməsini təqdir etdiklərini bildiriblər. QHT rəhbərləri ictimai sektorun və bilavasitə fəaliyyət göstərdikləri sahədə mövcud vəziyyət haqqında danışaraq üzləşdikləri çətinliklərin aradan qaldırılması ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Yekunda çıxış edən Hikmət Hacıyev bugünkü müzakirələrin faydalı olduğunu, QHT-lərin irəli sürdüyü rəy və təkliflərin araşıdırılacağını və əsaslandırılmış məsələlərin həlli istiqamətində müvafiq addımların atılacağını qeyd edib. Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

## <u>Rasim Quliyev:</u> "Azərbaycan Ermənistanın məskunlaşdırma siyasəti ilə bağlı hər bir faktı sənədləşdirməlidir"

"Ümumiyyətlə, hələ 200 il bundan öncə çar Rusiyasının İrandan, Suriyadan, Livandan, Türkiyə ərazisindən erməniləri köçürüb indiki Ermənistan ərazisində yerləşdirməsi siyasəti nəticəsində bir oyuncaq dövlət yaradılıb. Təbii ki, bu siyasət bu gün də davam edir. BMT, ATƏT-in Minsk qrupu və digər beynəlxalq təşkilatlar da hamısı birmənalı şəkildə bəyanatlarla, müəyyən qərarlarla təsdiq edirlər ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilər Azərbaycanın hüquqi ərazisidir və hazırda həmin ərazilər işğal altındadır". Bu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.



Rasim Quliyev hesab edir ki, Azərbaycan dövləti Ermənistanın bu məskunlaşdırma siyasətinə öz etirazını bildirməklə yanaşı hər bir faktı ayrıca sənədləşdirməli və bütün beynəlxalq təşkilatların hamısına göndərməlidir: "Bu gün BMT-nin Azərbaycan ərazilərindən Ermənistan ordusunun qeyri-şərtsiz çıxarılması və işğal olunmuş əraziləri azad etməsi barədə 4 qətnaməsi mövcuddur. Təəssüflər olsun ki, bu qətnamələr hələ də icra olunmayıb. Amma buna baxmayaraq həmin qətnamə hüquqi qüvvədədir. Bu mənada hesab edirəm ki, rəsmi Bakı hər bir faktı ayrıca sənədləşdirərək nəinki bütün beynəlxalq təşkilatlara, eləcə də BMT-yə təqdim etməlidir. Bu bizim gələcəkdə işğal altında olan torpaqlarımızı azad edərkən əlimizdə olacaq hüquqi sənədlərdir. Çünki biz qondarma Dağlıq Qarabağda məskunlaşdırılacaq xarici vətəndaşlarla necə rəftar edəcəyimizi indidən hüquqi sənədlərlə rəsmiləşdirib aidiyyatı beynəlxalq qurumlara təqdim etməliyik. Düşünürəm ki, dünyada gedən son proseslər göstərir ki, Azərbaycan dövləti cənab Prezidentin də öz çıxışlarında qeyd etdiyi kimi uyğun zamanda öz torpaqlarını işğaldan azad etməyə hazırdır. Bunun üçün bütün hüquqi baza və Azərbaycan ordusunun imkanları da var. Bircə uyğun siyasi zamanı gözləmək lazımdır. Təbii ki, uyğun siyasi zamanın da yetişməsinə çox az qalıb".

***Ceyhun Rasimoğlu***

## <u>Akkan Suver:</u> *"Prezident İlham Əliyevin hər fürsətdə Türkiyəni dəstəkləməsi bizə qürur hissi yaşadır"*



*Prezident İlham Əliyev sentyabrın 2-də Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən söylədiyi fikirlərlə Azərbaycan-Türkiyə münasibətlərinin həqiqətən də qardaşlıq münasibətləri olduğunu bir daha sübut etdi. Dövlət başçısının bu sözləri hər bir türk tərəfindən böyük rəğbətlə qarşılandı.*

*Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver söyləyib.*

*Göstərdiyi qətiyyətli mövqeyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən Akkan Suver deyib: "Azərbaycan Prezidenti ölkəmizə və millətimizə dəstəyini göstərməklə bərabər bütün dünyaya göstərdi ki, Türkiyə yalnız deyil. Ermənistan, Yunanıstan və Kipr arasındakı üçtərəfli hərbi əməkdaşlığa toxunan dövlət başçısı bu əməkdaşlığın narahatdoğurucu məqamlarını diqqətə çatdırdı, bunun Azərbaycan üçün təhdid törətdiyini vurğuladı. Bütün dünya Ermənistanın işğalçı dövlət olduğunu bilir. İşğalçı dövlətlə əməkdaşlıq təcavüzkar tərəfə dəstək vermək deməkdir".*

*Türkiyə-Azərbaycan münasibətlərinin ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq inkişaf etdiyini vurğulayan professor fikirlərini belə tamamlayıb: "Azərbaycanın müstəqil dövlət kimi əldə etdiyi uğurlar Türkiyənin qürur mənbəyidir. Fəxr edirik ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə gündən-günə qüdrətlənir və müstəqil siyasət yürüdür. Prezident İlham Əliyevin hər fürsətdə Türkiyəni dəstəkləməsi bizə ayrıca qürur hissi yaşadır. Azərbaycan və Türkiyə hər zaman tərəddüdsüz bir-birinin yanında olub və bundan sonra da olacaq. Bizim qardaşlığımız əbədidir".*

# NewsRu: "Ermənistan Moldovaya arxadan zərbə endirib"

***Bir neçə gün bundan əvvəl Transnistriyanın qondarma "paytaxtı" Tiraspolda növbəti təxribatçı tədbir - heç kəs tərəfindən tanınmamış "Dnestryanı Moldova Respublikası"nın 30 illiyi şərəfinə dəbdəbəli təntənələr təşkil edilib. Bu tədbirin bir sıra şübhəli (konkret halda isə məhz şübhəsiz) iştirakçıları arasında qondarma "Dağlıq Qarabağ Respublikası"nın "Milli Məclisinin spikeri" Artur Tovmasyanın başçılığı ilə nümayəndə heyəti də iştirak edirdi. NewsRu.md saytında dərc edilmiş "Ermənistan Moldovaya arxadan zərbə endirib" sərlövhəli məqalə bu barədədir.***




AZƏRTAC həmin məqaləni təqdim edir.

"Təyini-müqəddərat" və başqa gəlişigözəl sözlərlə zəif maskalanmış sərhədlərin güclə dəyişdirilməsi nə demək olduğunu Moldova ictimaiyyətinə izah etməyə yəqin ki, ehtiyac yoxdur. Hələ Transnistriyanı Moldovadan qoparmaq üçün göstərilən ilk cəhdlərdən əvvəl Ermənistan Azərbaycanın Qarabağ bölgəsinə iddia edirdi. 1992-1993-cü illərdə keçmiş SSRİ məkanındakı ölkələr mövcud sərhədlər daxilində tanındığı vaxt Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edərək onun vətəndaşlarının orta hesabla hər 7 nəfərindən birini, toplam 1 milyon insanı qaçqına çevrilib.

Lakin bu gün söhbət başqa məsələ - Moldova dövlətinin əzəli maraqları barədədir. İlk növbədə qeyd etməliyik ki, bu cür separatist qurumlar heç də vakuumda mövcud deyil. Qarabağ separatçılarından (əgər "işğalçı rejim" ifadəsi kiminsə qulağına xoş gəlmirsə onları belə də adlandırmaq olar) ibarət nümayəndə heyətlərinin Tiraspola səfər etmələri ilk dəfə deyil. Onların oraya hansı yollarla gedib çıxması da maraqlıdır. Bu faktı unudanlara xatırladaq ki, Transnistriyaya iki yolla getmək olar: ya Ukraynadan, ya da Moldova Respublikasının rəsmi sərhədindən keçməklə. Bizdə olan məlumata görə, Qarabağdan olan erməni separatçıların nümayəndə heyəti bu dəfə Ukrayna sərhədindən keçib. 2016-cı ildə isə, həmin nümayəndə heyəti Tiraspola Kişinyovdan gəlmiş və geri qayıdanda Ukraynadan keçmişdi.

Daha maraqlı məqam Tiraspoldan olan nümayəndələrin cavab səfərləridir. Onlar tanınmamış "DQR" ərazisinə dəfələrlə, özü də Yerevandan səfər ediblər.

İndi isə bir qədər "diplomatik bürokratiya". Belə separatist qurumların hamısı "təyini-müqəddərat" barədə mühakimə yürütməyi və özlərini "müstəqil dövlətlər" kimi qələmə verməyi xoşlayırlar, əslində isə onlar yalnız işğalçı oyuncaq rejimlər kimi mövcuddur. Heç kəs üçün sirr deyil ki, qondarma Dağlıq Qarabağ Respublikasının arxasında Ermənistanın rəsmi hakimiyyət orqanları dayanır. Bir məqama diqqət yetirmək kifayətdir ki, ATƏT-in şəxsində dünya birliyi Qarabağda münaqişənin tərəfləri kimi Azərbaycanı və Ermənistanı müəyyən edib və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair danışıqlar rəsmi Yerevan ilə rəsmi Bakı arasında aparılır.

Artur Tovmasyan tipli personaların "müstəqilliyi"nə inanmaq heç cür mümkün deyil. Deməli, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "Milli Məclisinin spikeri" Artur Tovmasyanın başçılığı ilə "DQR" nümayəndə heyətinin Transnistriyaya səfəri, əvvələn, beynəlxalq hüququn əsas norma və prinsiplərinə ziddidir. İkincisi, bu, Ermənistan tərəfindən açıq-aşkar düşmənçilik addımı, daha dəqiq desək Moldovanın kürəyinə zərbədir. Bu fakt ən azı heyrət doğurur. Gəlin realist olaq: Ermənistan nümayəndə heyətinin Moldovanın qanuni hakimiyyət orqanlarının nəzarəti altında olmayan ərazilərə nümayişkaranə şəkildə səfər etməsi, Moldova hakimiyyət orqanlarının xəbəri olmadan başqa dövlətin sərhədindən keçərək Transnistriyaya gəlməsi Moldova Respublikasının sərhədlərinə və ərazi bütövlüyünə nümayişkaranə hörmətsizlikdir.

Yerevanda Moldova ilə Ermənistan arasında əməkdaşlıq və tərəfdaşlıqdan, bu iki ölkənin xalqları arasında dostluqdan dəm vurmağı xoşlayırlar, lakin Moldovanın arxasında açıq-aşkar ikili oyun oynanılır. Başqa sözlə desək, ikili standartlar siyasəti yürüdülür. Belə olmasaydı, Azərbaycanın işğal edilmiş Qarabağ bölgəsindən olan separatçılar Tiraspola sadəcə gedib çıxa bilməzdi.

Bütün bunlar o deməkdir ki, Moldovanın rəsmi hakimiyyət orqanları Yerevanın bu cür hoqqabazlıqlarına artıq bu gün münasibət bildirməlidirlər. Daha dəqiq desək, bunu hələ dünən, özü də sərt ssenari üzrə etməli idilər.

# Bəhruz Quliyev: "Prezident İlham Əliyevin çağırışları həm də dünya birliyinə ismarıcdır"



"Prezident İlham Əliyev cənabları beynəlxalq siyasi aləmdə öz qətiyyətli sözünü deyən, fikirlərini irəli sürən liderdir və biz bu reallığı dəfələrlə ən mötəbər tribunalardan da müşahidə etmişik".SİA-nın verdiyi məlumata görə, bunu "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev ölkə başçısının Yunanıstanın Azərbaycana təyin olunmuş yeni səfirinin etimadnaməsini qəbul edərkən, vurğuladığı fikirləri şərh edərkən deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev daima xalqının, dövlətinin mövqeyini ən ali dərəcədə ifadə edir və bununla yanaşı, ədalətli siyasət amilini önə sürür. O cümlədən, diplomatik bilik və bacarıqlarını müxtəlif görüş və qəbullarda tətbiq etməklə, yüksək siyasi təcrübəsini ortaya qoyur: "Xüsusilə, milli maraqlar kontekstində fəaliyyətini aparan ölkə başçımız Yaponiyanın və Yunanıstanın səfirlərinin etimadnamələrini qəbul etdiyi mərasimində də bu məsələni mühüm fikirləri, nitqi ilə önə sürdü. Belə ki, dövlət rəhbərimizin Yunanıstanın, Kiprin və Ermənistanın hərbi əməkdaşlıq məsələlərinə toxunarkən təcavüzkarın müdafiə olunmasını qeyri-mümkün hesab etməsi, eyni zamanda, Yunanıstanın Azərbaycanla əməkdaşlıq etmək marağında olduğunu bildirməklə, Avropa Birliyi ölkələrindən biri olduğunu xatırlatmaqla, haqqın, ədalətin tərəfində dayanmalı olduğunu vurğulaması çox əhəmiyyətli diplomatik faktordur. Cənab Prezident kifayət qədər açıq şəkildə bildirdi ki, Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı dönməzdir və Türkiyə həmişə Azərbaycanın yanında olduğu kimi, Azərbaycan da daimi olaraq Türkiyənin yanında olacaq. Yəni dövlət başçımız bununla daha bir məsələni - Şərqi Aralıq dənizindəki böhranı nəzərdə tutaraq, bu məsələdə də qardaş Türkiyənin yanında olduğunu tərəf kimi nümayiş etdirmiş oldu".

"Hesab edirəm ki, Prezident İlham Əliyevin belə bir qətiyyət nümayiş etdirməsi həm Azərbaycan xalqı tərəfindən, həm də Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirildi", deyən siyasi ekspert əlavə edib ki, artıq Türkiyənin dövlət rəsmiləri də dövlət başçımızın bu addımından qürur duyduqlarını vurğulayır, Ona öz minnətdarlıqlarını çatdırırlar: "Həmçinin düşünürəm ki, Prezident İlham Əliyevin çağırışları dünya ölkələrini, xüsusilə Avropa və Qərb ölkələrini ədalətli siyasət yürütmələrinə yönəlmiş bir ismarıc, habelə, Azərbaycan-Türkiyə sarsılmaz birliyinin növbəti danılmaz isbatıdır".

# Rauf Əliyev: "Ermənilər 200 ildir torpaqlarımızda qeyri-qanuni məskunlaşdırılması siyasəti aparır"



Avqustun əvvəlində Livanın paytaxtı Beyrutda baş vermiş partlayış 200 ildən çoxdur ki, ermənilərin Azərbaycan torpaqlarına, xüsusi ilə Dağlıq Qarabağa və ətraf rayonlara qeyri-qanuni köçürülməsi prosesinə yeni təkan verdi. Bunu SİA-ya Milli Məclisin deputatı Rauf Əliyev deyib. Deputatın sözlərinə görə, Yaxın Şərqdə ermənilərin daha çox kompakt yaşadıqları ölkələrdən olan Livanın paytaxtı Beyrutda baş verən partlayış nəticəsində ölən və yaralananlar içərisində erməni mənşəli vətəndaşların olması, erməni məhəllərinə və tikililərinə də ziyan dəyməsi planlaşdırılan köçürmə siyasətini reallaşdırmaq üçün işğalçı Ermənistana yeni fürsət yaradıb:

"Baş vermiş faciə nəticəsində Ermənistana təxliyə edilmiş ailələrin Dağlıq Qarabağa köçürülməsi ilə bağlı təklif gündəmə gətirilmişdir. Əsas məqsəd nə olursa olsun, Dağlıq Qarabağda demoqrafik vəziyyətə süni olaraq təsir göstərmək, burda daha çox ermənilərin məskunlaşdırılmasına nail olmaqdır. Əslində bu ssenari yeni deyil, Rusiya və İran arasında 1813 -cü ildə bağlanmış "Gülüstan" və 1828-ci ildə bağlanmış "Türkmənçay" müqavilələrindən sonra ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi prosessinin əsası qoyulmuş və bu günə kimi davam edir. Çar Rusiyası dağılana dək Türkiyədən, İrandan və digər Yaxın Şərq ölkələrindən ermənilərin Azərbaycan torpaqlarına, əlalxüsus Dağlıq Qarabağa köçürülməsini təmin etmişdir. İndi isə, 30 ildir ki, bu qeyri-qanuni məskunlaşdırma siyasətini Dağlıq Qarabağı və ətraf 7 rayonumuzu işğal edən işğalçı Ermənistan həyata keçirir.

Hazırda Livandan və Suriyadan ermənilərin Dağlıq Qarabağa yerləşdirilməsi üçün münbit şərait yaranmışdır. Süriyada gedən münaqişələr, Beyrutda baş verən partlayışdan sonra bu çətinliklərlə üzləşən ermənilərin bir çoxu bu ölkələri tərk edirlər. Bu ölkələrdə fəaliyyət göstərən erməni diaspora təşkilatları və digər erməni təşkilatları bu ölkəlri tərk edən erməniləri Ermənistana və ordan da işğal olunmuş Qarabağ torpaqlarına yönləndirirlər. Çox ehtimal ki, gələn ermənilərin içərisində erməni terror təşkilatının üzvləri, xüsusi hazırlıq keçmiş və Azərbaycana qarşı keçiriləcək hərbi əməliyyatlarda iştirak üçün nəzərdə tutulan muzdlular da yer alırlar. Birinci Qarabağ müharibəsi zamanı erməni cəbhəsində dünyanın müxtəlif ölkələrindən, o cümlədən Suriyadan və Livandan olan yaraqlılar fəal surətdə iştirak ediblər. ASALA erməni terror təşkilatının üzvü Monte Melkonyan Qarabağ müharibəsində məhz xarici muzdlulardan təşkil olunmuş batalyonun komandiri olub.

Baş verənlər göstərir ki, Ermənistan beynəlxalq öhdəliklərini pozmaqda davam edir. Azərbaycanın işğal altında olan ərazilərində qanunsuz məskunlaşdırma siyasətini yerinə yetirmək üçün hər fürsətdən istifadə edir. Ermənistan rəhbərliyi avqustun əvvəlində Beyrutda baş verən partlayışdan Dağlıq Qarabağ və ətraf rayonlarda ermənilərin qanunsuz yerləşdirilməsi üçün bir fürsət kimi dəyərləndirir. İşğal altında olan Azərbaycan ərazisində qurulmuş separatçı rejimin lideri Livandan olan 150 erməni ailsinin Dağlıq Qarabağa yerlədirilməsini təklif edib və artıq bir-neçə ailə bu bölgəyə yerləşdirilmişdir. Ermənistan uzun illərdir ki, Yaxın Şərqin bəzi ölkələrindən, birinci növbədə Livandan və Suriyadan gətirilən erməni ailələrini Dağlıq Qarabağda və bura bitişik rayonlarda qanunsuz olaraq yerləşdirmişdir.

Ermənistanın həyata keçirdiyi qanunsuz məskunlaşdırma faktları ATƏT-in faktaraşdırma missiyalarının müvafiq hesabatlarında da öz əksini tapmışdır. Beynəlxalq İctimayyət Ermənistanın bu məsuliyyətsiz hərəkətlərini qınamalı, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün Ermənistandan xoşniyyətli danışıqlar aparmağı tələb etməlidir. Beynəlxalq ictimayyət tərəfindən Ermənistanın Azərbaycana qarşı təcavüzkar əməllərinə görə, Azərbaycan torpaqlarının 20%-nin işğalına görə qınanması son dərəcə vacibdir. Beynəlxalq ictimayyət Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasətini, ermənilərin işğal olunmuş Azəərbaycan torpaqlarına qanunsuz məskunlaşdırılması siyasətini kəskin surətdə pisləməyincə və bu ölkənin təhlükəli və qanunsuz hərəkətlərinə qarşı sərt tədbirlər görülməzsə, bu region davamlı olaraq silahlı qarşıdurmalar və müharibə riski ilə üzbə üz qalacaqdır".

# "Prezident açıq şəkildə Yunanıstan səfirinə öz narazılığını bildirdi"



"Azərbaycan Prezidenti cənab İlham Əliyev Yaponiyanın və Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnaməsini qəbul edərkən çox vacib bir görüş keçirdi. Dövlət başçımız açıq şəkildə Yunanıstan səfirinə öz narazılığını bildirdi". Bunu SİA-ya politoloq İlqar Vəlizadə deyib.

"Prezidentin sözləri onu göstərir ki, Şərqi Aralıq dənizindəki maraqlar münaqişəsi coğrafiyası böyüyür. Artıq bu prosesin təsirləri Cənubi Qafqaza gəlib çatır. Təbii ki, burada da müəyyən dərəcədə problemli məsələlər yaranır. Əlbəttə ki, bu problemli məsələlər bu məkanda yerləşən bütün ölkələrin maraqlarına ziddir. Ölkə başçısı da onu bildirdi k, bu ziddiyyətləri aradan qaldırmaq lazımdır və bunla bağlı konkret yol göstərib. Heç kəsə sirri deyil ki, burada Azərbaycan, Türkiyə, Yunanıstan və regionun digər ölkələri irimiqyaslı layihələr həyata keçirir. Xüsusilə də Cənub-Qaz Dəhlizi layihəsi çox vacib və faydalı bir layihədir. Bu ilin sonunda həmin layihə artıq işə salınmalıdır. Bu da Avropanın enerji təhlükəsizliyini təmin edən bir layihədir. Əlbəttə ki, burada bütün ölkələr həmin məsələyə məsuliyyətlə yanaşmalıdır. Təəssüflər olsun ki, Ermənistan tərəfi yeganə ölkədir ki, bu layihənin reallaşmasında maraqlı deyil. Ermənistan tərəfi Türkiyə-Yunanıstan münasibətlərinin gərginləşməsindən istifadə edərək regionda gedən müsbət proseslərə əngəl yaratmaq istəyir. Təbii ki, bu yolverilməzdir. Ermənilərin oyunları vəziyyəti qarışdırır"-deyə, İ.Vəlizadə fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# Azərbaycan dövləti koronavirusla mübarizə məqsədilə bütün mümkün tədbirləri maksimum effektiv şəkildə həyata keçirməyə çalışır

## Milli Məclisin deputatı Soltan Məmmədovun yap.org.az-a müsahibəsi



***- Soltan müəllim, ölkəmizdə koronavirus pandemiyası ilə əlaqədar olaraq Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən karantin rejimi sentyabrın 30-dək uzadılıb. Cəmiyyətimizdə bu məsələ geniş müzakirə olunur. Sizcə, karantin rejiminin uzadılmasını zəruri edən səbəblər nədir?***

- Bilirsiniz ki, Azərbaycan elə ilk günlərdən virusun yayılmasının qarşısının alınması ilə bağlı çox effektiv tədbirlər həyata keçirdi. Cənab Prezident də öz çıxışlarında dəfələrlə vurğulayıb ki, dövlətimiz üçün ən vacib məsələ vətəndaşların sağlamlığıdır. Çünki bu, həm də milli təhlükəsizlik məsələsidir. Azərbaycan Prezidentinin bütün istiqamətlərdə həyata keçirdiyi siyasətin mərkəzində insan amili dayanır. Məhz buna görə də, Azərbaycan dövləti bir çox iqtisadi və maliyyə risklərini gözə alaraq vətəndaşların sağlamlığının qorunması üçün bütün mümkün addımları atdı. Nazirlər Kabineti yanında Operativ Qərargahın fəaliyyət başlaması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, karantin rejiminin tətbiqi məhz bu məqsədə xidmət edirdi. Qısa zamanda səhiyyə sisteminin effektiv fəaliyyətini təmin edən addımlar atıldı, modul tipli xəstəxanalar quruldu. Yeni laboratoriyalar formaslaşdırıldı. 46 xəstəxana koronavirus xəstələrinə xidmət göstərmək üçün ayrıldı. 575 çarpayılıq "Yeni Klinika" fəaliyyətə başladı, Fövqəladə Hallar Nazirliyinin xətti ilə 800 çarpayılıq xəstəxana istifadəyə verildi. Bu günlərdə isə Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan 820 yerlik modul tipli növbəti hospitalın açılışı oldu. Bu tədbirlər virusun daha böyük miqyasda yayılmasının qarşısını almağa, yoluxanların müalicəsi üçün imkanların genişləndirilməsinə şərait yaratdı. Nəticədə sağalanların sayı yoluxanların sayını üstələdi və biz müsbət dinamika əldə etdik. Bu dinamikanı qoruyub saxlamaq üçün karantin rejimin tətbiqi olduqca mühüm əhəmiyyət kəsb edir.

COVID-19 yeni tip virus olduğundan tam şəkildə müalicəsi hələ ki yoxdur. Dünyanın müxtəlif ölkələrində bu istiqamətdə ciddi araşdırmalar aparılır. Peyvəndin tapılmasına qədər virusun yayılmasının qarşısının alınmasının hələlik ən effektiv yolu insanların kütləvi şəkildə toplaşmasının məhdudlaşdırılması, fiziki məsafənin saxlanılması və tibbi qoruyucu vasitələrdən istifadədir. Karantin rejiminin müddətinin uzadılması da insanların sağlamlığının maksimum dərəcədə qorunmasına hesablanıb.

***- COVID-19 infeksiyası ilə mübarizədə Azərbaycanın səhiyyə sisteminin maddi-texniki bazasını, tibb personalının peşəkarlığını necə dəyərləndirirsiniz?***

- Azərbaycanda səfərdə olan Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri, ölkəmizə gələn həkimlər, mütəxəssislər bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər. Azərbaycan dövləti virusla mübarizə məqsədilə bütün mümkün tədbirləri maksimum effektiv şəkildə həyata keçirməyə çalışır. Qeyd etdiyim kimi, yeni xəstəxanaların fəaliyyətə başlaması, qısa müddətdə müasir laboratoriyaların qurulması, ən yüksək standartlara cavab verən testlərin ölkəmizə gətirilməsi bizim əldə etdiyimiz nailiyyətləri şərtləndirən əsas amillərdir.

Ölkəmizə gələn xarici mütəxəssislərin əsas qeydlərindən biri ondan ibarət idi ki, Azərbaycandakı xəstəxanalar Ümumdünya Səhiyyə Təşkilatının müalicə protokollarında təsdiq olunmuş bütün dərman preparatları ilə təchiz olunub. Təminatın yüksək olması, müalicə protokollarına dəqiqliklə əməl olunması Azərbaycanda COVID-19-dan ölüm sayının az olmasını əsas səbəblərindən biridir. Müvafiq avadanlıqların, süni tənəffüs aparatlarının düzgün tətbiqi də burada mühüm rol oynayıb. Bütün bunlar həm də bizim həkimlərimizin yüksək peşəkarlığından xəbər verir. Bunu xarici mütəxəssislər də xüsusi qeyd edirdilər.

***- Yeri gəlmişkən, avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. Azərbaycan Prezidenti cənab İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib. Dövlətimizin başçısı açılışda cəmiyyətə ciddi mesajlar verib. Bu barədə nə deyə bilərsiniz?***

- Cənab Prezident bir daha qeyd etdi ki, Azərbaycan dövləti insanların sağlamlığını qorumaq, pandemiyadan ən az itki ilə çıxmaq üçün bütün tədbirləri davam etdirməkdə qərarlıdır. Əsas məsələlərdən biri, vətəndaşlarımızın bundan sonra da verilən qərarlara ciddi şəkildə riayət etməsidir. Çünki bu, elə bir xəstəlikdir ki, onunla mübarizədə vətəndaş həmrəyliyi, dövlətlə xalq arasında qarşılıqlı inam, etimad, milli birlik olduqca mühüm əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, cənab Prezident öz çıxışında bir daha karantin rejiminin məhdudiyyətlərinə əməl etməyin vacibliyini xüsusi olaraq vurğuladı. Azərbaycan hüquqi dövlətdir və hər bir vətəndaşa münasibətdə ədalətli davranılması ölkəmizdə idarəçilik fəlsəfəsinin təməl prinsiplərindən birini təşkil edir.

***- Soltan müəllim, koronavirus pandemiyası ilə mübarizədə bütövlükdə cəmiyyətimizin üzərinə hansı vəzifələr düşür?***

- Pandemiya hələ ki, bitməyib və onun bitəcəyi tarixi də indiki halda dəqiq proqnozlaşdırmaq mümkün deyil. Ona görə də, hər birimiz bu məsələdə maksimum dərəcədə məsuliyyətli olmalıyıq. Burda hansı vəzifədə çalışmasından, ictimai statusundan asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı məsuliyyət hissi ilə yanaşmalıdır. Hesab edirəm ki, cəmiyyətin böyük bir hissəsi bu xəstəliyə qarşı mübarizədə kifayət qədər yüksək məsuliyyət nümayiş etdirir. Biz əldə etdiyimiz müsbət dinamikanı saxlamaq üçün bundan sonra da diqqətlə, məsuliyyətlə davranmalıyıq.

Pandemiya dövrü mahiyyət etibarilə həm də dövlətlər üçün bir sınaq idi. Hesab edirəm ki, dövlətimiz bu sınaqdan uğurla çıxmaq üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Lakin, COVID-19 həm də cəmiyyətlər üçün bir sınaqdır. Bu sahədə də nikbin olmağa əsas yaradan faktlar kifayət qədərdir. Əminəm ki, məhz dövlət-xalq birliyi, Azərbaycanda mövcud olan həmrəylik bizim koronavirusa qalib gəlməyimiz üçün kifayət qədər ciddi imkanlar yaradır.

## Ərdoğan: "Haqlarımızdan imtina etməyəcəyik"

***"Aralıq dənizinin şərqində gördüyümüz işlərdə biz haqlıyıq, haqlarımızdan imtina etməyəcəyik".SİA-nın məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. O, Türkiyənin bu məsələ ilə bağlı tezislərinin beynəlxalq hüquq normalarına uyğun olduğunu bildirib:***



***"Aralıq dənizinin şərqi məsələsi başda olmaqla bütün diplomatik mövzulardakı danışıqlarımızı həmkar ölkələrlə müqayisə edin. Keçmişdə Yunanıstan başda olmaqla bu ölkələrə nə cür dəstək verdiyimizi araşdırın. Bu vəziyyətə necə çatdığımızı xalqa deyin. Türkiyə hər zaman eyni yerdə dayanıb.***

Amma Fransa və Yunanıstan kimi ölkələrin dövlət başçıları daim dəyişkən mövqe tutub. Söhbəti və düşüncələri də fərqli idi, get-gəllər baş verdi. Bu günə qədər olan bu get-gəlləri araşdırın, geniş bir araşdırma aparın, mənə təqdim edin. Həm həmsöhbətlərimizlə görüşlərdə, həm də xalqa bunu izah edək. Bu mövzuda yüz faiz biz haqlıyıq, haqlarımızdan əl çəkmirik. Cənubi Kipr xaricində hər kəslə bir masada əyləşə bilərik. Bu, hüquqlarımızı güzəştə gedəcəyik, demək deyil. Hamının qazana biləcəyi ortaq bir zəmində görüşə bilərik. Ancaq Yunanıstan bunu qəbul etmir. Hər şeyi masada çözməyə davam edəcəyik. Siyasi həll yolunu dəstəkləyirik. Almaniya vasitəçilik etmək istəyir, amma strateji müttəfiqi Fransanı dəstəkləmək məcburiyyətində qalır".

**Aysel Məmmədova**

## Jalə Əliyeva: Azərbaycan və Türkiyə hər zaman tərəddüdsüz bir-birinin yanında olub və olacaq



"Sizə deyə bilərəm və bu, sirr deyil ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı...".

Bu fikirlər Prezident İlham Əliyevə məxsusdur. Dövlət başçısı bu bəyanatı sentyabrın 2-də Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən səsləndirdi. Qəbul zamanı bir çox məsələlərə birmənalı və sərt mövqeyini ifadə edən dövlətimizin başçısı qardaş Türkiyə ilə Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginliyə də geniş toxundu və qeyd etdi ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir, türklər bizim qardaşlarımızdır və beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq.

Milli Məclisin deputatı, professor Jalə Əliyeva bununla bağlı AZƏRTAC-a açıqlamasında bildirib ki, bəli, bu, əsl dost, əsl qardaş, əsl müttəfiq mövqeyidir.

Deputat deyib: "Bir azərbaycanlı kimi çox qürurlandım, çox sevindim, açıq şəkildə deyirəm ki, hətta, çox kövrəldim... Bir anlıq yaxın tariximizdə baş vermiş daha bir qürurverici hadisəyə ekskurs etdim. Yəqin çoxlarının yadında olar, bir neçə il öncə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə Ermənistanın sabiq prezidenti Serj Sarkisyan öz çıxışını bütünlükdə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr etmişdi. Türkiyənin sammitdə təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti bununla da sammitin plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma "soyqırımı" məsələsini qabartmış və Türkiyəni əsas tənqid hədəfi kimi seçmişdi. Həmin sammitdə Prezident İlham Əliyevin Sarkisyana cavab verərək qətiyyətli şəkildə "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi hər kəsi, xüsusilə də tədbir iştirakçılarını, dövlət və hökumət başçılarını təəccübləndirmişdi. Çoxları bu sözlərdən sanki çaşqınlığa, şoka düşmüşdü. Amma bu mövqe, bu iradə bütün türk dünyasında hamı tərəfindən alqışla, rəğbətlə qarşılandı. İndi olduğu kimi, o zaman da bu qətiyyətli, cəsarətli mövqeyinə, iradəsinə görə cənab Prezidentimizlə qürurlanmış, iftixar hissi keçirmişdik. Bəli, bu sözləri yalnız İlham Əliyev kimi özünə güvənən, qətiyyətli, iradəli, cəsarətli dövlət xadimi, lider səsləndirə bilərdi. Dövlətimizin başçısının Yunanıstan səfiri ilə görüşdə söylədikləri ani bir hissdən irəli gələn çıxış deyildi. Cənab Prezident bununla bir daha nümayiş etdirmiş və sübut etmiş oldu ki, Azərbaycan ilə Türkiyə arasında olan qardaşlıq, dostluq münasibətləri bütün münasibətlərin fövqündə dayanır. Azərbaycanın sevinci Türkiyənin sevinci, Türkiyənin uğuru Azərbaycanın uğurudur və ya Azərbaycanın kədəri Türkiyənin, Türkiyənin kədəri Azərbaycanın kədəridir. Bu iki dost və qardaş ölkə bu günədək olduğu kimi, bundan sonra da bir olacaq, birlikdə problemlərini həll edib zəfərlərinə də birlikdə qoşa qanad kimi addımlayacaq. Heç bir güc bu birgəliyin qarşısını kəsə bilməyəcək. Bu günə kimi belə olub, bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan Türkiyəyə istisnasız və tərəddüdsüz dəstəyini verəcək, Türkiyə də eynilə Azərbaycanın yanında olacaq. Azərbaycan Türkiyənin üzləşdiyi terror bəlasına qarşı birmənalı və barışmaz mücadiləsini, o cümlədən Aralıq dənizində kəşfiyyat məsələsində israrlı, haqlı mövqeyini dəstəkləyib, bundan sonra da dəstəkləyəcək".

Deputat qeyd edib ki, qəbul zamanı digər məsələlərdən də danışıldı, xüsusilə Yunanıstan, Kipr və Ermənistanın hərb əməkdaşlıq məsələsindən narahatlıq ifadə olundu. Eyni zamanda, Yunanıstanın keçmiş hökumətinin bu ölkənin qaz şirkəti "DESFA" ilə bağlı tenderin qalibi olan SOCAR-a qarşı ötən müddətdə haqsız mövqe nümayiş etdirilməsindən, amma Azərbaycanın bu məsələ ilə əlaqədar hansısa addım atmamasından, əksinə, TAP məsələsində Yunanıstana jest etməsindən söhbət açıldı və bir daha ölkəmizin qətiyyətli mövqeyi ortaya qoyuldu. Odur ki, bütün məsələlərlə, o cümlədən qardaş Türkiyə ilə bağlı qətiyyətli, cəsarətli mövqeyinə görə cənab Prezidentə minnətdarlıq edirik. Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

# Qardaşlıq qətiyyəti, “Bir millət, iki dövlət” reallığı



***Azərbaycanla Türkiyə arasında mövcud olan sarsılmaz qardaşlıq bağlarının beynəlxalq siyasi arenada da dəfələrlə öz təsdiqini tapması sirr deyil. İstər Türkiyə Cümhuriyyətinin, istərsə də Azərbaycan Respublikasının təmsil olunduqları demək olar ki, bütün nüfuzlu qurum və təşkilatlarda qarşılıqlı dəstək ifadə etmələri əlbəttə ki, xalqlarımız arasında qürur duyurmaqdadır.***

Bu, eyni zamanda Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” tarixi kəlamının məntiqi nəticəsidir. Əbəs deyil ki, bir çox beynəlxalq tədbirlər zamanı Azərbaycanın olmadığı yerdə Türkiyə, Türkiyənin olmadığı yerdə isə Azərbaycan bir-birlərinin siyasi və s. maraqlarını müdafiə edir, ortaya qətiyyət qoyurlar. Bu həqiqətlərin sayı isə kifayət qədərdir.

## Qardaş ölkələr arasında birlik, həmrəylik və dəstək ifadə edən məqamlar

Məsələn, hələ 2014-cü il aprelin 24-də - Çexiyanın paytaxtı Praqada dövlət və hökumət başçılarının iştirakı ilə “Şərq tərəfdaşlığı” proqramının 5 illiyinə həsr olunan sammitdə Ermənistan o zamankı prezidenti Serj Sarqsyan Zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlükdə qondarma “erməni soyqırımı” ilə bağlı mülahizələrə həsr etməsi ilə yanaşı, Türkiyənin Sammitdə təmsil olunmamasından sui-istifadə edərək, qondarma “soyqırımı” məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçmişdi. Ermənistan prezidenti çıxışında hər cəhdlə inandırmağa çalışmışdı ki, Avropa ictimaiyyəti qondarma “soyqırımı” ilə bağlı daha təsirli mövqe tutmalıdır. Lakin Sarqayan çox ciddi şəkildə yanılmasının fərqinə varmaması ilə yanaşı, həm də unutmuşdu ki, orada Azərbaycan Prezidenti də var. Məhz erməni dövlət başçısının fikirlərinə verilən sərt cavab da onu yerində oturtdu. Azərbaycan Prezidenti cənab İlham Əliyev bildirib ki, Ermənistan prezidenti fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir və bu sərt bəyanatını verir. SİTAT: “Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur: “Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi ermənilər idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl - Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq bu günədək davam edir”.

Beləliklə, bu tarixi məqamlar ilk növbədə qardaş Türkiyə dövlətində, ölkə rəhbərliyində minnətdarlıq hissi ilə qarşılandı və bundan sonrakı dövrlərdə də qardaş ölkələr arasında birlik, həmrəylik və dəstək ifadə edən məqamlar yer aldı.



**Prezident İlham Əliyevin Yunanıstan səfirini qəbul edərkən, irəli sürdüyü diplomatik fikirləri məhz bu mühüm amili önə sürməkdədir**

## Azərbaycan xalqı və dövləti hər zaman qardaş Türkiyənin yanında olmuşdur

Türkiyədə 15 iyul dövlət çevrilişinə edilən cəhd zamanında da Azərbaycan dövləti dərhal bu xain plana reaksiya göstərdi və qardaş Türkiyə dövlətinin dövlət rəhbərliyinin, xalqının yanında olduğunu bəyan etdi. Prezident İlham Əliyev xain planın növbəti ildönümündə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana yazığı məktubunda da bu amilə toxunub. SİTAT: “Türkiyə dövlətinə və xalqına qarşı olan bu xəyanətkar dövlət çevrilişi cəhdini ilk dəqiqələrdən ən qəti şəkildə pisləyən ölkə Azərbaycan olmuşdur. Bununla Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin yanında olduğunu göstərmişdir”. Türkiyənin Qarabağ məsələsində daim Azərbaycanın yanında olması faktı da belə qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.

## Prezident İlham Əliyevin cənab Rəcəb Tayyib Ərdoğana məktubundan: “Azərbaycana göstərdiyiniz dəstəyi xalqımız yüksək qiymətləndirir”

Biz, elə də uzağa getməyərək, Ermənistanın Tovuz təxribatını xatırlaya bilərik. Məhz həmin günlərdə Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan, eləcə də hökumətinin üzvləri birmənalı olaraq bəyan etdilər ki, qardaş Azərbaycanın yanındadırlar və hər zaman da belə olacaq. Ölkə rəhbərimizin sözügedən məktubunda bu faktor xüsusilə vurğulanıb.

“Biz də bütün məsələlərdə Türkiyənin güclü dəstəyini hiss edirik”, vurğulayan İlham Əliyev cənabları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin hər zaman Azərbaycanla həmrəy olduğunu, bütün beynəlxalq təşkilatlarda ölkəmizin haqlı mövqeyini müdafiə etdiyini bildirib. SİTAT: “Ermənistanın Azərbaycana qarşı hərbi hücumuna ilk reaksiyanı qardaş Türkiyə Respublikası vermişdir. Dünənki çıxışınızda Ermənistanın təxribatları ilə bağlı Türkiyənin qəti mövqeyini bir daha ifadə etdiniz. Azərbaycana göstərdiyiniz dəstəyi xalqımız yüksək qiymətləndirir”.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir. Əminəm ki, birliyimiz və həmrəyliyimiz bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq möhkəmlənəcək və genişlənəcəkdir.

## Prezident İlham Əliyev cənabları Şərqi Aralıq dənizi mövzusunda birmənalı olaraq Türkiyənin mövqeyini qəti şəkildə dəstəklədiyini də vurğulayıb

Məhz bu kontekstdən çıxış edərək, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Yunanıstan səfiri Nikolaos Piperiqkosu qəbul etdiyi zaman irəli sürdüyü fikirləri önəm kəsb etməkdədir. Dövlətimizin başçısı bu məsələdə bilavasitə Azərbaycanın milli maraqlarına əsaslanan və eyni zamanda, qardaş Türkiyənin regiondakı maraqlarını müdafiə edən mühüm fikirlər səsləndirdi.

Daha bir mühüm nüans Prezident İlham Əliyevin yüksək səviyyəli diplomatik bilgisi vasitəsi ilə açıq danışıq aparması ilə bağlıdır. Belə ki, məhz diplomatik qaydalara riayət edən dövlətimizin başçısı Yunanıstanın səfiri ilə açıq danışaraq bir daha nümayiş etdirdi ki, Azərbaycanın milli maraqları ən vacib məsələdir, burada qapalı və qaranlıq heç bir məqam ola bilməz.

Digər tərəfdən, ölkə rəhbərimiz Yunanıstanla əlaqələrin aşağı həddə olması məsələsinə də münasibətini açıqlayaraq məhz milli maraqlarımız kontekstindən çıxış edib, əzm, iradə, qətiyyət nümayiş etdirib. Belə bir məqamda Yunanıstanın Kipr və Ermənistanla birlikdə üçlük format yaradaraq Azərbaycana qarşı fəaliyyət göstərdiklərini, Yunanıstanla Ermənistan arasında hərbi əməkdaşlığın Azərbaycanda ciddi narahatlıq doğurduğunu da bəyan edən Prezident İlham Əliyev cənabları Şərqi Aralıq dənizi mövzusunda birmənalı olaraq Türkiyənin mövqeyini qəti şəkildə dəstəklədiyini də vurğulayıb. Bu xüsusdan da çıxış edərək qeyd edə bilərik ki, Türkiyə qəti şəkildə Azərbaycanın yanında olduğu kimi, Azərbaycan da qətiyyətlə Türkiyənin yanında olduğunu göstərib və qardaş ölkənin mövqeyinə növbəti dəfə dəstəyini nümayiş etdirib.

## Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu: “Çox təşəkkürlər edirəm cənab Prezident!”

Artıq Türkiyə tərəfinin də Azərbaycan Prezidenti İlham Əliyevin dəstək bəyanatına təşəkkürlər edilib. Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu “Twitter” sosial hesabında Prezident İlham Əliyevin sentyabrın 2-də Yunanıstanın ölkəmizə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən ifadə etdiyi “Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik” fikrinə şərh yazıb. SİTAT: “Çox təşəkkürlər edirəm cənab Prezident! Can Azərbaycanın dəstəyinə heç vaxt şübhəmiz olmadı. Türkiyə də həmişə tərəddüdsüz Azərbaycanın yanında olacaq”.

Türkiyəli nazir, həmçinin Ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” ifadəsini xatırladaraq dövlət bayraqlarımızın qoşa təsvirini də paylaşıb.

Bütün bu kimi reallıqlarda da deməyə əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət dünya diplomatiya tarixinə yazılan açıq, səmimi və milli maraqlara əsaslanan siyasət nümunəsidir və həmin nümunə özünü bir da təsdiq etdi.

***Rövşən NURƏDDİNOĞLU***

# “Paşinyanın Dağlıq Qarabağa səfərinin arxasında duran əsas amil təşviş və qorxudur”

***Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfərinin arxasında duran əsas amil təşviş və qorxudur. Çünki Ermənistan rəhbərliyi Azərbaycanın gücü qarşısında qorxuya düşüb. Digər tərəfdən, işğalçı ölkə həm də Azərbaycanı qorxutmağa cəhd göstərir.***



Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Tofiq Abbasov deyib. Politoloq diqqətə çatdırıb ki, Ermənistan Rusiyadan yeni silah-sursat aldıqdan sonra daha da ürəklənib. Amma, əslində, bu silah-sursatın çoxu yararsız vəziyyətdədir. “Bu, təbii ki, məsələnin ikinci tərəfidir. Sadəcə, bundan istifadə edərək Paşinyan Azərbaycana psixoloji təsir göstərməyə çalışır. O, bunu Qarabağa səfəri zamanı, əsasən, hərbi obyektlərdə olması ilə göstərməyə çalışır. Lakin Paşinyan özü-özünü aldadır. Bu siyasətin sonu yoxdur. 2014-cü ilin avqust ayından etibarən onlar vaxtaşırı olaraq cəbhə bölgəsində və sərhədyanı ərazilərdə təxribat törətməklə məşğuldurlar. Amma burunları ovulduqdan sonra peşmanlıqla geri çəkilməyə məcbur olurlar. 2016-cı ilin aprelində Azərbaycan Ordusu ermənilərin növbəti təxribatının qarşısını aldı və düşmən gücümüzü gördü. İşğalçı ölkə son təxribatını isə bu ilin iyulunda Tovuz istiqamətində törətdi. Bu da onu göstərir ki, Ermənistanın siyasi hakimiyyəti beynini, təfəkkürünü deyil, həmişə olduğu kimi, hiyləsini işə salmaqla məşğuldur”, - deyə T.Abbasov bildirib.

Rəsmi Yerevanın iki ölkə arasında gərginliyin azadılmasında qətiyyən maraq göstərmədiyini diqqətə çatdıran politoloq diqqətə çatdırıb ki, Paşinyan hakimiyyəti Qarabağa səfəri ilə yeni, dağıdıcı planlara meydan verdiyini nümayiş etdirir. Məqsəd odur ki, bölgədə böyük müharibə başlasın. Amma anlamır ki, müharibə başlasa, bu, Ermənistanın sonu olacaq.

“Paşinyanın cəbhənin Tovuz istiqamətində Azərbaycanla sərhəddə təxribat törətməkdə fərqlənmiş erməni hərbçilərini mükafatlandırması, hətta onlardan birinə “Milli qəhrəman” adını təqdim etməsi teatr tamaşasında səhnə oyununu xatırladır, iyul döyüşlərindən sonra Ermənistan ordusundakı ruh düşkünlüyünü aradan qaldırmağa hesablanıb. Ermənistan rəhbərliyinin ağlı başında olsaydı fikirləşərdi ki, burnu ovulandan sonra Azərbaycanla yenidən belə oyun oynamaq onun dövlətinin və hakimiyyətinin xeyrinə olmayacaq. Əks halda, onları yenə də məğlubiyyət gözləyir”, - deyə politoloq vurğulayıb.

Onun sözlərinə görə, dünyanın koronavirus pandemiyası ilə çətin mübarizə apardığı bir vaxtda Paşinyan yenə öz məkrli məqsədlərini həyata keçirməyə çalışmaqdan yorulmur. Hazırda Dağlıq Qarabağda qeyri-qanuni məskunlaşdırma siyasəti aparılır. Hakimiyyət Livanda güclü partlayış nəticəsində evsiz-eşiksiz qalmış erməniləri Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsini planlaşdırır. Onlar yarım milyon insanı Qarabağa köçürmək niyyətindədirlər. Bu siyasət öz mahiyyətinə görə çox mənasızdır. Onlar bu planı Suriyada vətəndaş müharibəsi vaxtı da həyata keçirməyə cəhd göstərsələr də, alınmadı. Yəni, çox az sayda insan Qarabağa gəlsə də, bu ölkədəki vəziyyəti görüb yenidən geri qayıtdı. Onlar başqa ölkələrdəki erməniləri Qarabağa gətirmək üçün nağıllar uydururlar. Guya ki, Qarabağ Ermənistanın qədim yurdudur və kim gəlib burada yaşasa, cənnətə gedəcək.

T.Abbasov qeyd edib ki, faşist ideologiyasına qulluq edənləri ancaq qazanc və gəlir əldə etmək düşündürür. Paşinyanın Dağlıq Qarabağa səfəri zamanı Ağdərə rayonundakı “Beys Metls” şirkətinin dağ-mədən kompleksində olması da təsadüfi deyil. Onun xalqa xidmət etməsi ilə bağlı verdiyi sözlər vəddən başqa bir şey deyil.

Paşinyanın və ailə üzvlərinin adı mafiya hadisələrində, dağ-mədən sənayesi məhsulları, silah satışı və siqaret alverində hallandırılır. Paşinyanın Qarabağa səfəri də ailə biznesini genişləndirmək, Azərbaycanın işğal olunmuş ərazilərində qızıl və digər metalların qeyri-qanuni istismarından payını götürmək niyyəti daşıyır. Bu səbəbdən bu bölgənin müharibə zonasında olması ona sərf edir. Paşinyan sələflərinin xəttini davam etdirərək cəbhə bölgələrində azərbaycanlı mülki əhalinin, yaşayış məntəqələrinin davamlı olaraq atəşə tutulmasında xüsusi fəallıq göstərir. Ermənistan rəhbərliyi və onun ətrafı yaxşı anlayır ki, onlar bizimlə döyüşə hazır deyillər və bu səbəbdən çalışırlar ki, imkan daxilində öz şəxsi korporativ maraqlarını təmin etsinlər.

Politoloqun sözlərinə görə, bu gedişlə Ermənistan heç vaxt tənəzzüldən qurtula bilməyəcək və məhvə məhkumdur. Azərbaycan dövlətinin, Ordusunun gücünü nəzərə almayan bu ölkənin müqəddəratı sual altındadır. Paşinyan hakimiyyəti son variant olaraq 100 minlik könüllülər ordusu yaratmaq istəyir və buraya Livandan gələn erməniləri də cəlb etmək fikrindədir. Əslində, bu, terrorçu ordu olacaq. Ümumiyyətlə, Paşinyanın dünyada baş verən proseslərlə bağlı heç bir məlumatı yoxdur. Livanlılar Cənubi Qafqazda nə baş verdiyini bilirlər. Təbii ki, onlar bir münaqişə zonasından ikinci münaqişə bölgəsinə keçməyi qətiyyən istəməzlər.

“Lakin Ermənistan rəhbərliyindən fərqli olaraq, Azərbaycanın dövlət başçısı və onun komandası vəziyyəti düzgün təhlil edir, qüvvələr nisbətində vəziyyətin necə olduğunu yaxşı bilir. Azərbaycanın dövlət siyasətinin mahiyyəti ondan ibarətdir ki, Ermənistanın və onun hakimiyyətinin faşist ideologiyasını, siyasətini ifşa etsin, onların iç üzünü, Paşinyan hökumətinin destruktiv rolunu bütün dünyaya göstərsin.

Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Çünki işğalçı Ermənistan 30 ildir Azərbaycan ərazilərini işğal altında saxlayır. Ölkəmizin ərazi bütövlüyü dünya miqyasında tanınır. Azərbaycan öz ərazi bütövlüyünü nəyin bahasına olursa olsun bərpa edəcək”, - deyə Tofiq Abbasov vurğulayıb.

## Azərbaycanın Müdafiə naziri Moskvada beynəlxalq tədbirdə iştirak edəcək



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv-dövlətləri Müdafiə nazirlərinin sentyabrın 4-də keçiriləcək görüşündə iştirak etmək üçün Moskvaya yola düşəcək. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər sentyabrın 6-dək davam edəcək.

## Dünyanın ən yaxşı universitetlərinin adları açıqlanıb

Böyük Britaniyanın “Times Higher Education” (THE) jurnalı dünyanın ən yaxşı universitetlərinin illik reytinqini dərc edib. Bu il siyahıda 93 ölkədən 1 527 təhsil müəssisəsi yer alıb. TOP-5-də Oksford Universiteti (Böyük Britaniya), Stenford Universiteti (ABŞ), Harvard Universiteti (ABŞ), Kaliforniya Texnologiya İnstitutu (ABŞ) və Massaçusets Texnologiya İnstitutu (ABŞ) yer alıb. (report)

## “Prezident dünya siyasətində öz sözünü deyən bir liderdir”



Əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bu gün dünya siyasətində öz sözünü deyən bir liderdir. O, həm rəhbər kimi, həm siyasətçi kimi, nəinki Azərbaycan xalqının mənafeyi, eləcə də dünyada şöhrət qazanmış bir siyasətçi kimi, bütün xalqların azad, xoşbəxt, sülhsevər şəraitdə yaşamasının tərəfdarıdır. Bu diplomat üçün xas olan ən başlıca keyfiyyətdir. Siyasətçi üçün bu çox böyük bir önəmdir ki, təkcə öz xalqını düşünmədən, bəşəri ideyalar, bəşəri amallar uğrunda mübarizə aparasan. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, Cənab Prezident son illərdə həyata keçirdiyi tədbirlərlə, verdiyi təkliflərlə, gördüyü işlərlə dünyada bunu artıq sübut edib və dünyada bu gün ən böyük siyasətçilərdən biri kimi tanınır, sevilir və qiymətləndirilir: “Əlbəttə ki, Azərbaycan Prezidenti bəşəri amallar uğrunda mübarizə apardığı kimi, ancaq milli maraqları həmişə önə çəkir. Azərbaycan xalqının təhlükəsizliyi, sağlamlığı, xoşbəxt həyatı Azərbaycan Prezidenti üçün birinci dərəcəli vəzifədir. Bu Yaponiyanın və Yunanıstanın səfirlərinin təqdimatı mərasimində də özünü açıq göstərdi və ölkə rəhbəri xüsusilə Yunanıstan səfiri ilə söhbəti zamanı bütün o gizli məqamları ortaya qoydu. Çox açıq, çox hərtərəfli və bu günün reallıqlarını əks etdirən faktlala öz fikirlərini Yunanıstan səfirinə bildirdi. Bu əlbəttə ki, Yunanıstanın, Kiprin və Ermənistanın hərbi əməkdaşlıq məsələlərinə toxunarkən təcavüzkarın müdafiə olunmasını qeyri-mümkün hesab etdi. Bildirdi ki, əgər Yunanıstan Azərbaycanla əməkdaşlıq edirsə, o Avropa Birliyi ölkələrindən biridirsə, haqqın, ədalətin tərəfində olmalıdır. Azərbaycan torpaqları Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunub və bu gün də Azərbaycana qarşı müxtəlif təxribatlar həyata keçirilir, sərhəddə ölüm, itgi halları baş verir. Belə bir halda Yunanıstanın, Kiprin Ermənistanla hərbi əməkdaşlığı yolverilməzdir. Əgər, doğrudan da Yunanıstan haqqı, ədaləti dəstəkləyirsə, neytral qalmalıdır və Beynəlxalq Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq təşkilatların qərarlarına, sənədlərinə hörmətlə yanaşmalıdır. Ölkə rəhbəri çox açıq şəkildə bildirdi ki, Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı əbədidir, yenilməzdirəı dönməzdir və Türkiyə həmişə Azərbaycanın yanında olduğu kimi, Azərbaycan da daimi olaraq Türkiyənin yanında olacaq. Çünki, Türkiyə Azərbaycan xalqının mənafelərindən çıxış edib həmişə, bu gün də bu mövqedədir və Azərbaycan da daimi olaraq Türkiyənin mənafeyini müdafiə etməlidir, gözləməlidir. Aralıq dənizində Türkiyənin o manevrləri ilə əlaqədar öz fiirlərini bildirdi ki, əslində, Türkiyə düzgün mövqedən çıxış edir. Düzgün mövqedən çıxış edir və Türkiyə türk xalqının mənafeyini qorumaq, özünün təhlükəsizliyini təmin etmək üçün bütün vasitələrə əl atmalıdır və o bir dövlət kimi, bir xalq kimi öz sözünü daimi olaraq deməlidir. Azərbaycan Prezidentinin əlbəttə ki, bu çıxışı Azərbaycan xalqı tərəfindən, eləcə də türk xalqı tərəfindən yüksək qiymətləndirilir və elə bilirəm, nəinki bu iki qardaş dövlət, bir millət bu fikirləri dəstəkləməlidir, eləcə də türkdilli xalqların hamısı bu mövqedən çıxış eləməlidir. Yeri gələndə haqı, ədaləti bərpa etməkdən ötrü öz sözlərini deməldirlər. Əlbəttə ki, bu çıxışı ilə Azərbaycan Prezidenti bir daha özünün uzaqgörən, diplomatik gedişlər edən və kəskin mövqedən çıxış edən bir rəhbər, bir siyasətçi olduğunu bütün dünyaya bəyuan elədi. Biz ölkə rəhbərinin bu çıxışını dəstəkləyirik. Çünki, bu çıxış bu günü reallıqlarından irəli gəlir. Bu çıxış dövlətin tutduğu mövqeyi əks etdirir və bu çıxış sözsüz ki, həm də təcavüzkar Ermənistana bir cavabdır. Əlbəttə ki, dünya bu gün ikili standartlarla işləyir və Azərbaycan həqiqətləri bir çox hallarda kölgədə qalır. Ancaq buna baxmayaraq, Azərbaycan Prezidentinin dson çıxışları göstərir ki, o qətiyyətlidir, o iradəlidir, o Azərbaycan xalqının gələcəyi üçün bütün çətinliklərə dözməyə hazırdır və bütün çətinlikləri aradan qaldırmağa qadirdir. Elə bilirəm ki, bu çıxışlar nəinki Yunanıstana, dünyaya bir mesajdır. Eləcə də, təxribatçılara dəstək verən bütün qüvvələrə bir mesajdır ki, Azərbaycan heç vaxt öz torpaqlarının işğalda qalmasına dözməyəcək, öz torpaqlarını azad edəcək və öz müttəfiqləri ilə öz qardaşları ilə daimi olaraq bir yerdə olacaq və Azərbaycanın, eləcə də türk xalqlarının birliyi uğrunda mübarizə aparacaq”.

## “News Blaze” nəşri: “Ermənistan üçüncü tərəfin köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionuna və yeddi ətraf rayona soxulub”

***“News Blaze” nəşrində amerikalı jurnalist və publisist Nurit Qringerin Azərbaycanın Tovuz rayonunda erməni təcavüzünə, Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalının davam etməsinə və üçüncü ölkədən Ermənistana silah göndərilməsinə həsr edilmiş məqaləsi dərc olunub.***


Wednesday, September 2, 2020
NewsBlaze HOME BUSINESS ENTERTAINMENT ISSUES SOCIAL THOUGHTS USA WORLD PEOPLE
Home › World › Eurasia › Russia-Armenia Destabilizing Nexus

Russia-Armenia Destabilizing Nexus

By Nurit Greenger - Tue September 1, 2020

77 Shares 38 39

Vladimir Putin is intensively arming Armenia against the Republic of Azerbaijan. Massive deliveries of Russian weapons to Armenia threaten a possible new war in the South Caucasus.

In 1991, almost 30 years ago, the Soviet Union formally collapsed, resulting in the breakaway from and the independence of all former Soviet satellite-republics. One such satellite is the Republic of Azerbaijan and another is Armenia.

However, during those years, Russian political leaders, especially its current president Vladimir Putin, have not been hiding their anger and regret for the dissolution of the USSR (Union of Soviet Socialist Republics). More so, the independence the former Soviet republics gained.

Mr. Putin once voiced that the collapse of the Soviet Union was, *"the greatest geopolitical catastrophe"* [of the 20th century].

Euroasia News from PR Newswire

Smart PV: Breathing Life into a Desert Landscape
YINCHUAN, China, Invalid date

Emirates optimistic on network recovery by summer 2021; operates one-off A380 flight to...
MANILA, Philippines, Invalid date

84% of Consumers in Indonesia are willing to see ads in exchange for free streaming video
JAKARTA, Indonesia, Invalid date

Moonbug Partners With Tencent Video To Expand Its Reach Across China

AZƏRTAC xəbər verir ki, materialda 1990-cı illərin əvvəlində Dağlıq Qarabağ münaqişəsinin qızışdırılmasından bəhs edilir. Məqalədə vurğulanır ki, həmin dövrdə Ermənistan üçüncü tərəfin köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionuna və yeddi ətraf rayona soxulub, həmin ərazidə etnik təmizləmə aparıb, Azərbaycanın bir milyona yaxın dinc sakinini öz əzəli torpaqlarından qovub.

Müəllif yazır ki, BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul olunmuş 822, 853, 874 və 884 nömrəli qətnamələrində erməni işğalının pislənməsinə, Azərbaycanın işğal edilmiş ərazilərindən bütün erməni qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb edilməsinə baxmayaraq Ermənistanın təcavüzü davam edir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadan Azərbaycanın suveren ərazisinin təqribən 20 faizini hələ də işğal altında saxlayır. O vaxtdan 30 ilə yaxın keçməsinə baxmayaraq azərbaycanlı məcburi köçkünlər hələ də bu münaqişənin həllini, onların öz doğma yurdlarına qayıda biləcəyi günü gözləyirlər.

Materialda daha sonra döyüş əməliyyatlarının qızğın vaxtında Ermənistana silah göndərilməsi barədə məlumatlar gətirilir, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə telefon söhbəti zamanı Prezident Əliyevin Rusiya tərəfindən Ermənistana silah göndərilməsi ilə əlaqədar hiddətləndiyi, bu məsələyə aydınlıq gətirilməsinin zəruri olduğunu vurğulaması bildirilir.

Qringer qeyd edir ki, erməni qoşunlarının bu yaxınlarda Azərbaycanın Tovuz rayonunda törətdiyi təxribat “Cənub Qaz Dəhlizi” layihəsinin uğurla davam etdirilməsinə Ermənistanın mane olmaq cəhdi ilə bağlıdır. Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra keçən illər ərzində 1 milyon qaçqın və məcburi köçkün olmasına baxmayaraq Cənubi Qafqazın ən iri iqtisadiyyata malik olan ölkəyə və Qərbin regionda ən mühüm tərəfdaşına çevrilib.

## Səfir: “Türkiyənin casuslara ehtiyacı yoxdur”



***“Türkiyənin öz vətəndaşlarını Avstriyada casusluğa cəlb etməyə ehtiyacı yoxdur və bu barədə iddialar əsassızdır”. SİA xəbər verir ki, bu fikirləri Türkiyənin Avstriyadakı səfiri Ozan Ceyhun bu ölkənin Federal Daxili İşlər naziri Karl Nehammerin iddialarına cavab olaraq bildirib.***

Səfir “Puls 4” telekanalına verdiyi müsahibədə Avstriyanın rəsmi qurumlarının mövqeyini sərt tənqid edərək, Türkiyəyə qarşı iddiaları əsassız hesab edib, qarşı tərəfi belə iddialarla bağlı birgə araşdırmalardan yayınmaqda təqsirləndirib. İddialarla əlaqədar nə səfirliyə, nə də Türkiyə Xarici İşlər Nazirliyinə heç bir rəsmi müraciətin daxil olmadığını diqqətə çatdıran diplomat Avstriya tərəfinin konkret faktlara deyil, bir və ya bir neçə nəfərin iddialarına əsaslandığını ifadə edib. Avstriyanın Federal Daxili İşlər naziri Karl Nehammer mətbuat konfransında Türkiyə xüsusi xidmət orqanlarının bu ölkədə yaşayan türk əsilli şəxsləri casusluğa cəlb etməkdə və onların vasitəsilə hökumətə müxalif şəxslər barədə məlumatları toplamaq ittihamı ilə çıxış edib.

Səfir Ozan Ceyhun müsahibəsində qeyd edib ki, müasir dövrdə PKK terror təşkilatına rəğbət bəsləyən və ya hökumətə qarşı çıxan şəxsləri müəyyənləşdirmək üçün hansısa metodlara gərək belə yoxdur. Sosial media kanallarının geniş yayıldığı indiki zamanədə hər kəs öz mövqeyini açıq şəkildə bəyan edir və kimin nə etdiyi hamıya məlumdur. Bundan başqa, Türkiyənin Avstriyada casusluq fəaliyyəti həyata keçirmək və iddia olunduğu kimi, cəmiyyətdə parçalanma yaratmağa nə marağı, nə də səbəbi var.

## “Anna Hakopyan ucuz və saxta vətənpərvərlik oyunları ilə məşğuldur”



***“Paşinyanın həyat yoldaşı Anna Hakopyanın Qarabağdakı hərbi təlimlərə qatılması, əlində kalaşnikov avtomatı ilə şəkillər çəkdirməsi nəinki dünyada, hətta Ermənistanın özündə belə gülüş doğurur. Çünki hər kəsə aydındır ki, Anna Hakopyan ucuz və saxta vətənpərvərlik oyunları ilə məşğuldur”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***

Sədaqət Vəliyeva bildirib ki, daim “sülh” çağırışı edən birinci xanımın əlində kalaşnikovla Qarabağda jest etməsi sülhə deyil, təcavüzkarlığa, işğalçılığa işarədir: “Hər kəsə aydındır ki, 2016-cı il aprel döyüşlərindən, 2018-ci il Günnüt əməliyyatından, nəhayət 2020-ci ildə Tovuz təxribatından sonra Ermənistanda orduya olan inam və güvən tamamilə itib. Son təxribatlara Azərbaycan ordusu tərəfindən verilmiş sarsıdıcı cavabdan sonra isə ümumiyyətlə ordu daxilində parçalanmalar genişləndi, fərarilik artdı. Hətta, elə bir gün yoxdur ki, erməni əsgər anaları Yerevanda aksiya keçirməsinlər. Onların etirazı məhz pis vəziyyətdə olan ordudakı özbaşınalıq, dərəbəyliklə əlaqədardır. Bu səbəbdən də, Anna Hakopyan bu cür ucuz və saxta vətənpərvərlik şouları ilə həmin anaları sakitləşdirməyə, erməni cəmiyyətinə mesaj ötürməyə çalışır. Eyni zamanda hakimiyyətə gələrkən verdiyi populist vədlərin heç birini yerinə yetirə bilməyən Paşinyanın da xalqın etimadını tamamilə itirmiş durumda olması faktdır. Görünür, Anna Hakopyan bütövlükdə iflas həddində olan Paşinyan totalitarizminə haqq qazandırmaq niyyətindədir. Amma gözlənildiyi kimi, onun bu hərəkəti tam əks reaksiya verdi və Anna Hakopyanın Qarabağdakı hərbi təlimlərə qatılması sosial şəbəkələrdə, xüsusilə ermənilər tərəfindən ciddi şəkildə tənqid olundu”.

“Bütün bunların fonunda iddia olunur ki, Anna Hakopyan bu jesti ilə Livandan, Suriyadan köçürülən və böyük ehtimalla Paşinyanın könüllü ordusuna yazılan ailələrə mesaj ötürür” - deyən Sədaqət Vəliyeva əlavə edib ki, bunu hər kəs başa düşür və heç kəs 14 aylıq Zəhranın erməni qatillərini unutmayıb: “Heç kəs unutmayıb ki, 2017-ci il iyulun 4-də Ermənistan silahlı qüvvələrinin minaatanlar və dəzgahlı qumbaraatanlar vasitəsilə təxribat törətməsi nəticəsində 14 aylıq Zəhra Quliyeva və nənəsi Sahibə Quliyeva qətlə yetirilib. Eyni zamanda, partlayıcı qurğu quraşdırılmış “itəbənzər” uşaq oyuncağının Ermənistan təxribatçıları tərəfindən Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxılması nəticəsində ermənilərin əl işi olan partlayıcı qurğunun işə düşməsi ilə 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Zirəddin qızı həlak olub. Eləcə də, cəbhə xətti yaxınlığında yerləşən Orta Qərvənd kənd sakini 9 yaşlı Fariz Bədəlovu həyətdə oynayarkən erməni snayperi tərəddüd etmədən başından güllələyib. Ortada bu cür faktlar olduğu halda uşaq qatillərinin təmsilçisi olan Anna Hakopyanın sülh çağırışları iflasa uğradığı kimi, onun ucuz və saxta vətənpərvərlik oyunları da ifşa olunmuş olur”.

## “Azərbaycanın səbrinin bir həddi var”

***“Ermənistan Respublikasının siyasi cəhətdən naşı rəhbərliyi Azərbaycanın əsəbləri ilə məncə çox da uzun müddət oynaya bilməyəcək. Yəni onlar beynəlxalq hüquqa belə çox hörmətsizlik edirlər”. Bunu SİA-ya siyasi şərhçi Azər Həsrət deyib.***



“Bir tərəfdən qonşu dövlətin torpaqlarını uzun müddətdir işğal altında saxlayırlar, oranın yerli əhalisini öz yurd-yuvalarından qovublar, digər tərəfdən də xarici ölkələrdən erməni millətindən olan şəxsləri bu və ya digər şəkildə müxtəlif vədlərlə aldadaraq gətirib Azərbaycan torpaqlarında məskunlaşdırmaq və guya o torpaqlarda daha çox ermənilərin yaşadığını dünyaya sübut etmək istəyirlər. Əlbəttə ki, bu çox ədəbdışı bir davranışdır. Yəni siyasi liderlər, özünə hörmət edən dövlətlər bu cür davranış sərgiləməzlər. Ermənistan isə təbii ki, özünə hörmət edən bir dövlət deyil. Eyni zamanda ona rəhbərlik edən siyasi liderlər də siyasətdə naşı adamlardır. Təbii ki, bir məhəllə uşağı səviyyəsində davranmaqla nəyəsə nail olacaqlarını düşünürlər. Amma Azərbaycanın da əsəbinin, səbrinin bir həddi var. Təbiidir ki, dövlətimiz bu məsələləri beynəlxalq platformalarda əsaslandırılmış şəkildə diqqətə çatdırmaqla bərabər öz torpaqlarına xarici ölkələrdən kimlərinsə üçüncü bir tərəf ölkə tərəfindən gətirilib yerləşdirilməsinə yol verməyəcək. Əlbəttə ki, indiki şəraitdə Ermənistan bu qanunsuz hərəkətlərini davam etdirəcəyi təqdirdə Azərbaycanın artıq güc tətbiq etmək üçün əlavə imkanları yaranmış olacaq”-deyə, A.Həsrət fikrini tamamlayıb.

## “Prezidentin çıxışında sarsılmaz birlik bir daha nümayiş olundu”

***“Yunanıstan səfiri ilə olduqca açıq danışan Prezident İlham Əliyev hər zaman olduğu kimi ölkəmizin milli maraqlarını önə çəkdi”. Bu sözləri SİA-ya açıqlamasında Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov deyib.***

“Dünən Prezident İlham Əliyev Yaponiya və Yunanıstanın ölkəmizdəki səfirlərinin etimadnamələrini qəbul edərkən çox vacib məsələlərə toxunmuş, vacib fikirlər səsləndirmişdir. Beləki cənab Prezident İlham Əliyev hər iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini, əməldaşlığın geniş spekrlı olduğunu və fəal siyasi dialoq olduğunu diqqətə çatdırdı. Yunanıstan səfiri ilə olduqca açıq danışan Prezident İlham Əliyev hər zaman olduğu kimi ölkəmizin milli maraqlarını önə çəkdi” - deyə, Rufiz Qonaqov bildirib.

Siyasi elmlər üzrə fəlsəfə doktoru, ölkə rəhbərinin bu görüşdəki nitqinə diqqət çəkib: “Prezident, bu görüşdə bildirdi ki, “Yunanıstan, Kipr və Ermənistan üçlük formatı yaradaraq, Azərbaycana qarşı fəaliyyət göstərirlər. Yunanıstanla Ermənistan arasında hərbi əməkdaşlıq ölkəmiz üçün ciddi narahatlıq yaradır. Şərqi Aralıq dənizi mövzusunda Azərbaycan Türkiyənin mövqeyini qəti şəkildə dəstəkləməkdədir. Türkiyə həmişə qəti şəkildə Azərbaycanın yanında olduğu kimi Azərbaycanda hər zaman qəti şəkildə Türkiyənin yanlındadır”. Bu bir daha onu nümayiş etdirir ki, ölkə rəhbərimiz Azərbaycanın milli maraqlarını qətiyyət və əzmkarlıqla hər bir görüşdə müdafiə edir”.

Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin rəhbəri



qeyd ediib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dünya diplomatiya tarixinə yazılan açıq, səmimi və olduqca mühüm bir nümunədir.

***Nigar Məmmədova***

# Məşhur Məmmədov: "Ölkə başçısının reytinq yüksək rəqəmlərdə: 90,8 faiz Prezidentə etibar edir"

"Sosial Tədqiqatlar Mərkəzi tərəfindən açıqlanan sorğunun nəticələri ölkə əhalisinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevin fəaliyyətini, Onun qlobal təşəbbüslərini, həyata keçirdiyi sosial-iqtisadi, siyasi islahatları, daxili və xarici diplomatiyanı, o cümlədən dünyanı bürüyən koronavirus pandemiyası dövründə gördüyü qabaqlayıcı tədbirləri tam dəstəklədiyini təsdiqləyir. Bu, Azərbaycan reallığını əks etdirən sosioloji sorğunun nəticəsidir. Belə ki, 90,8 faiz Prezidentə etibar edir". Bunu SİA-ya açıqlamasında millət vəkili Məşhur Məmmədov bildirib.



M.Məmmədov keçirilən sorğuda respondentlərin mütləq əksəriyyəti tərəfindən ölkə başçısının ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi və xarici siyasət sahəsindəki fəaliyyəti yüksək qiymətləndirildiyini vurğulayıb: "Belə ki, sorğuda respondentlərin mütləq əksəriyyəti tərəfindən ölkə başçısının ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi 96% və xarici siyasət sahəsindəki fəaliyyəti 95% qiymətləndirilib. Ümumilikdə isə respondentlərin mütləq əksəriyyəti - 92,8% ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyasından razıdır".

M.Məmmədov, həmçinin ölkədə xüsusilə də son dövrlərdə korrupsiyaya qarşı mübarizənin intensiv xarakter aldığını və bu sahədə həyata keçirilən həm kadr, həm də institusional islahatların aparılması ilə bağlı dövlət başçısının fəaliyyətini də respondentlərin yüksək dəyərləndirdiyini deyib: "Həyata keçirilən həm kadr islahatlarının, həm də institusional islahatların əsas hədəflərindən biri də məhz korrupsiya hallarının qarşısının alınmasından ibarətdir. Bu istiqamətdə ölkə prezidentinin fəaliyyəti 56,1% respondent tərəfindən çox səmərəli qiymətləndirərək bundan sonra da bu sahədə daha geniş nailiyyətlərin əldə olunmasını bildirirlər. Həmçinin, korrupsiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən fəaliyyətə müsbət münasibət bildirən 56,1% respondentin 36,5%-i Nazirlər Kabinetinə, 33,4%-i isə Milli Məclisə etibar etdiyini qeyd edib. Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi fəaliyyəti ilə bağlı keçirilən bütün sorğuların nəticələri həmişə yüksək rəqəmlərlə müşahidə olunur"

"Ardıcıl və düşünülmüş siyasi kurs - bütün bunlar nəyi ifadə edir? Hər şeydən əvvəl Prezident İlham Əliyevin alternativsiz lider kimi xalqını inam ünvanı olduğunun göstəricisidir", - deyən M.Məmmədov onu da bildirib ki, Prezident İlham Əliyev 17 illik prezidentdidiyi fəaliyyətində Azərbaycanda yeganə və alternativsiz lider olduğunu sübut edib: "Bir də, heç kəs unutmamalıdır ki, reallıqda siyasətçinin sözünə yox, həyata keçirdiyi işlərə qiymət verilir. Prezident İlham Əliyev də məhz 17 illik fəaliyyətinə görə Azərbaycanda yeganə və alternativsiz lider kimi xalqın inam ünvanıdır. Çünki Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Baxın, karantin epidemiyasının ilk günündən bu günə kimi, vətəndaşların problemləri daima dövlət başçısının diqqətində olub. Ölkə Prezidenti bütün çıxışlarında dönə-dönə bildirib ki, karantin rejimi nə vaxta kimi uzanması bilinmir, ancaq buna baxmayaraq vətəndaşların problemləri həll olunmalıdır. Faktlara diqqət yetirək: ilkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Sonra bu insanların sayı 600 minə çatdırıldı. Həmçinin, 15 mindən çox tənha yaşlı insana evlərində sosial xidmətlər göstərilir, 2020-ci il martın 1-dən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların əlillik müddəti xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək uzadılıb. On dörd min nəfəri əhatə edən bu tədbir üçün 2,6 milyon manat ayrılıb. Bu istiqamətdə daha bir tədbir isə əhaliyə güzəştli işıq limitinin aprel-may ayları üçün 100 kilovat saat həcmində artırılmasıdır. İki ayda buna 10 milyon manat vəsait tələb olunur. Göründüyü kimi, koronavirus pandemiyası şəraitində reallaşdırılan bənzərsiz sosial müdafiə tədbirləri Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır", "Azərbaycan dövləti hər zaman vətəndaşın yanındadır" fikirlərinin bariz təzahürüdür və əməli işlərlə tamamlanır. Budur xalqa qayğı, budur hər bir vətəndaşın Prezidenti olmaq. Bütün bunlar ölkə Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsi və xalqın öz Prezidentinə inamıdır. Bir sözlə, keçirilən bütün sorğular bir daha onu təsdiqləyir ki, Cənab İlham Əliyev faktoru güclü lider, qüdrətli dövlət amilinin bariz göstəricisidir".

**RƏFİQƏ HÜSEYNOVA**

# Praqada Sarqsyana, Bakıda Yunanıstan səfirinə dəqiq "zərbə"



"Azərbaycan Prezidentinin Yunanıstanın yeni təyin olunmuş səfiri ilə söhbəti diplomatiya tarixinin çox nadir rast gəlinən tam açıq, şəffaf və qətiyyətli danışıq səhifələrindən biridir. Azərbaycan-Yunanıstan münasibətlərinin dünəni, bu günü və faktiki tam dayanmış hala qədər keçdiyi yola dair bütün suallara dəqiq və konkret cavab verildi. Qəti demək olar ki, iki ölkənin münasibətlərini indiki tam durğun və heç bir dinamika olmayan vəziyyətdən hərəkət etdirmək üçün bundan ideal danışıq üsulu tapmaq mümkünsüzdür. Hər şey açıq deyildi və bir daha aydın oldu ki, münasibətlərin indiki vəziyyəti üçün məsuliyyət daşıyan tək tərəf Yunanıstandır. Yunanıstan hökumətlərinin iki ölkənin münasibətlərinə öldürücü təsir etmiş hərəkətlərinin konkret faktlarla izah edilməsi diplomatiya tarixinin ən maraqlı səhifələri sırasına düşəcək. Azərbaycan Prezidenti hər şeyi açıq deməklə həm dövlət maraqlarının mübahisəsiz üstün tutulduğunun istənilən şərait üçün əsas olduğunu göstərdi, həm də vəziyyəti xilas etmək üçün nə edilməsinin vacib olduğunu aydın göstərdi. Yunanıstan hökumətinin rəsmən Azərbaycanı DESFA-nın alınması ilə bağlı tenderə dəvət etməsi və Azərbaycanın qalib çıxdığı tenderi sırf siyasi mülahizələrlə ləğv etməsi dövlətlərarası əməkdaşlıq müstəvisində çox pis nümunədir". SİA-nın məlumatına görə, bunu açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Siyasi şərhçi bildirib ki, üçtərəfli ittifaq çərçivəsində Yunanıstanın təcavüzkar Ermənistanla birləşərək Azərbaycana qarşı dayanması da ziyanlı nümunədir: "Prezident səfirə təsadüfən xatırlatmadı ki, biz eynilə bu şəkildə Rusiyanın da Ermənistanı silahlandırmasını açıq demiş və kəskin etirazımızı bildirmişik. Azərbaycan Prezidentinin səfirə demək istədiyi bu idi ki, biz hamı ilə münasibətlərdə müqabil tərəfin maraqlarına tam məsuliyyətli olduğumuz üçün eyni məsuliyyəti tərəf müqabillərimizdən də tələb etmək haqqına malikik. Prezidentin TAP qaz kəməri barədə xatırlatması da tam yerində idi. Bir neçə alternativin olduğu şəraitdə Yunanıstan üçün idel sərfəli olan TAP-ın seçilməsi Azərbaycanın xoş əməkdaşlıq niyyətinin təzahürüdür və bunun müqabilində Yunanıstanın etdikləri heç bir ölçüyə sığmır. Azərbaycan Prezidenti dənizlərlə heç bir bağlılığı olmayan Ermənistana iki dəniz dövləti ilə hərbi ittifaq imkanı yaradan Yunanıstanın xoş olmayan niyyətlərini sadəcə ifşa etdi. Təcavüzkar və həm də Aralıq dənizinə çıxışı olmayan Ermənistana bu qədər hərbi-siyasi himayəçilik sənin nəyinə lazımdır?!".

A.Quliyev vurğulayıb ki, Prezidentin Türkiyə ilə qardaşlıq barədə dedikləri diplomatiya tarixinə silinməz rənglə yazıldı: "İlham Əliyev 2014-cü ildə Şərq tərəfdaşlığının Praqa zirvəsində Türkiyəni qaralayan Sarqsyanın cavabını hansı kəskinliklə vermişdisə, eyni tonda cavabı yunan səfirinə də verdi. Prezidentin yunan səfiri ilə söhbəti tarixi nümunədir və dövlətlərarası münasibətlərdə arqumentli açıq və kəskin tonun çox təsirli üsul olduğunu bir daha təsdiqlədi. Həmişə ütülü danışmağın hər şərait üçün uyğun taktika olmadığı aydın nümayiş etdirildi. Prezident həm də yunan səfirinə çox aydın perspektiv göstərdi ki, Azərbaycanla sonrakı əməkdaşlığın taleyi yalnız Yunanıstanın siyasətindən asılı olacaq. Azərbaycan danışıqların predmet üzrə aparılması mövqeyində qərarlı olmalıdır".

*Aysel Məmmədova*

# Kamilə Əliyeva: "Təcavüzkar Ermənistan bütün cəbhələrdə Azərbaycana açıq-aşkar uduzur"

***"İşğalçı və təcavüzkar Ermənistan artıq bütün cəbhələrdə Azərbaycana açıq-aşkar uduzur. Bu məğlubiyyət seriyası xüsusilə də "Valday"dan, Aşqabad Sammitindən, Türk Şurası və Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşlərindən, Münhen Təhlükəsizlik Konfransı və "Şərq Tərəfdaşlığı"nın sonuncu toplantısından sonra daha da güclənib". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Kamilə Əliyeva deyib.***



K.Əliyeva diqqətə çatdırıb ki, diplomatik uğurlarımız sayəsində Ermənistan hakimiyyəti ardıcıl sarsıdıcı zərbələr almaqdadır. İyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Azərbaycanın Tovuz rayonu istiqamətində törədilən növbəti qanlı təxribatdan və fitnəkarlıqdan sonra dünya ictimaiyyəti erməniləri daha yaxşı tanımağa başlayıb. Azərbaycan Ordusu tərəfindən geri oturdulan və layiqli cavabını alan düşmən çaşqınlıq içindədir. İşğalçı ölkə hazırda siyasi-iqtisadi böhran, siyasi xaos, hərbi məğlubiyyətin acısı ilə yaşayır. Hətta illərdir arxalarında dayanan və Azərbaycanın üzərinə hücum əmri verən dairələr, mərkəzlər, açıq-gizli havadarlar, dəstəkçilər indi onların köməyinə çata bilmir.

"Tovuz döyüşlərində məğlubiyyətindən sonra qorxaqcasına və mütiəsinə yalvardıqları, qapısını döydükləri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) də onlardan imtina etdi. Minskdə yaşananlar, bədnam və sərsəm Paşinyanın tək buraxılması, heç kim tərəfindən ciddiyə alınmaması isə biabırçılığın son həddi oldu. Çünki KTMT artıq Ermənistanın oyununa inana bilməzdi. Bu qurumdakı bütün dövlətlər Azərbaycanın dostları, müttəfiqləridir və bu ölkələr Azərbaycanın əleyhinə heç bir addım atmadılar. Bununla da, ermənilər və onların havadarları növbəti siyasi-diplomatik zərbələrini aldılar. Paşinyan hökuməti artıq başını itirib və onun tərəfindən atılan isterik addımlar da bunun göstəricisidir", - deyən deputat qeyd edib ki, işğalçı ölkənin siyasi dairələri son çarəni yüz illərdir təxribatla, terrorla məşğul olan erməni lobbisi və diasporunda axtarsa da, istəyinə nail ola bilmədilər. Əksinə, Paşinyan və onun hakimiyyəti daha rəzil vəziyyətə düşdü.

K.Əliyeva diqqətə çatdırıb ki, Ermənistanın son təxribatına və fitnəkarlığına qarşı yaşadıqları ölkələrdə ayağa qalxan həmvətənlərimiz çox geniş etiraz aksiyaları keçirdilər. Bu zaman həm Ermənistan, həm də Ermənistanı idarə və himayə edən dairələr tərəfindən dirijor çubuğu ilə hərəkətə gətirilən faşist, terrorist düşüncəli, nasist ruhlu erməni lobbisi, erməni diasporunun üzvləri həmvətənlərimizə qarşı təxribatlara əl atdılar, açıq-aşkar güc, zor tətbiq etməkdən çəkinmədilər. Bununla da əslində bir daha mürtəce simalarını bütün dünyaya nümayiş etdirdilər. Nümayiş etdirdilər ki, nə Ermənistanda, nə də xaricdə yaşayan ermənilər, erməni lobbisi və diasporu üçün dəyişən heç nə yoxdur. Lakin düşmən istəyinə nail ola bilmədi. Xaricdə yaşayan soydaşlarımızın son dərəcədə yüksək təmkini, soyuqqanlılığı sayəsində ermənilərin fitnəkarlığının qarşısı alındı. Təşkilatlanmış Azərbaycan diasporu "erməni lobbisi" mifini darmadağın etdi. "Son olaraq Paşinyanın Qarabağa səfəri göstərir ki, Ermənistan hakimiyyəti Azərbaycana qarşı yeni hücum planları qurur, hərbi əməliyyatların yenidən bərpasına, növbəti təxribatlara başlamaq niyyətindədir. Lakin Azərbaycan dövləti və ordusu buna imkan verməyəcək. Çünki bizim düşmənin təxribatına və hücumlarına cavab vermək üçün kifayət qədər imkanımız var", - deyə deputat söyləyib.

# Rusiyada müxalifət liderini siniri iflic edən maddə ilə zəhərləyiblər

***Berlin xəstəxanasında aparılan analizlərin nəticələri göstərir ki, rusyalı müxalifət lideri Aleksey Navalnını "Noviçok" qrupuna aid olan sinirləri iflic edən maddə ilə zəhərləyiblər. SİA-nın məlumatına görə, bu barədə Almaniya hökumətinin bəyanatında bildirilib.***



Bildirək ki, Aleksey Navalnı avqustun 20-də Tomskdan Moksvaya uçduğu zaman təyyarədə özünü pis hiss edib. Bu səbəbdən təyyarə Omska fövqəladə eniş edib. Navalnının komanda üzvləri siyasətçinin zəhərləndiyini bildirirdilər. Vəziyyətində ağırlaşma müşahidə edilən Navalnı avqustun 22-də Berlinə aparılıb.

# “Azərbaycanda taksilər əksər insan üçün əlçatandır”

**“Əgər, hansısa bir şirkət sərnişin daşımalarını 10 qəpikdən həyata keçirərsə, ona heç kim qadağa qoya bilməz. Taksilərdə də belədir, tənzimləmələr olsa belə yuxarı qiymətə tənzimlənəcək”. Bu sözləri SİA-ya müsahibəsində nəqiyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov deyib. O, Azərbaycanda taksi fəaliyyətində tətbiq olunan qiymətlərdən danışıb və taksilərin müəyyən tarif əsasında xidmət göstərməsi məsələsinə münasibət bildirib.**



***Ölkəmizdə taksilərin fəaliyyətini necə dəyərləndirirsiniz?***

Taksilər qeyri-müəyyən dairədən olan sərnişinlərin daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitələridir. Sözün dar mənasında taksilər də ictimai nəqliyyat hesab edilə bilər. Bu, özünəməxsus ictimai nəqliyyatdır, taksinin xüsusiyyəti ondan ibarətdir ki, fərdi sifarişlə sərnişin daşıyır və həmin sifarişi verən sərnişinin seçdiyi vaxtda ictimai nəqliyyatda marşrutlar işləməsə belə taksi sərnişini istənilən nöqtədən götürür və istənilən nöqtəyə çatdırır. Daşınmalar daha konfortludur, daha fərdi xarakter daşıyır. Bir sözlə hər kəsə lazım olan bir nəqliyyat vasitəsidir. Hətta, hər gün sərnişin daşıyan avtobus sürücüsünə belə lazım ola bilər. Digər tərəfdən maddi vəziyyətindən asılı olmayaraq taksilərin fəaliyyəti hər bir şəxsin ehtiyacını ödəyir. Ola bilsin ki, kiminsə səhhətində problemlər mövcuddur və o, avtobus dayanacağına gedə bilmir. Yəni, taksilər əhalinin mobilliyinin təmin edilməsində rol oynayan bir daşıma vasitəsidir. Hamı üçün əlçatan olması çox vacibdir. Burada yoxsul, zəngin, məşğul və ya bekar adam məsələsi yoxdur. Hamının bu vasitəyə ehtiyacı ola bilər.

***Azərbaycanda taksilərin qiyməti hər kəsi qane edəcək səviyyədədirmi?***

Azərbaycanda taksilər gediş haqqısına görə əksər insan üçün əlçatandır. O qədər də baha deyil. Bu çox gözəl xüsusiyyətdir və qeyri-adi proses deyil, belə də olmalıdır.

***Taksilər üçün xüsusi tariflərin təyin olunması məsələsinə necə yanaşırsınız?***

Bununla bağlı çoxlu mübahisələr var. Hansısa ölkələrdə bu tariflər var. Sovet dövründə bu, Azərbaycanda da olub. Lakin, müstəqillikdən əldə ediləndən sonra bu öz əhəmiyyətini itirdi. Təxminən, 12-15 il bundan əvvəl taksilər üçün tariflər müəyyən olundu, lakin, bu tariflər özünü doğrultmadı. Çünki, taksiyə qiymət müəyyən etməyin çox incə məqamları var. Avtomobil sinfinə uyğun taksilərin növü belə fərqli ola bilər. Daşımaların rahatlığına görə, şəhərətrafı və şəhərdaxili fəaliyyətlərinə görə taksilər siniflərə ayrıla bilər. Bir şəhərdən digər şəhərə gedən yaxud Bakı şəhəri daxilində çalışan taksilərin biri-birindən fərqləri var. Yəni, taksilər üçün vahid tarif təyin etmək çox incə meyarları nəzərə almağı tələb edir. Buna görə də, 12-15 il bundan əvvəl təyin edilən tariflər özünü doğrultmadı və ləğv olundu.

***Taksilər üçün xüsusi tariflərin təyin olunmasına ehtiyac var?***

Düşürəm ki, hazırda buna heç bir ehtiyac yoxdur. Buna heç qanun da imkan vermir. Çünki, ölkəmizdə “Tənzimlənən Qiymətlər Haqqında Qanun” var. Burada hansı məsələlərin dövlət tərəfindən tənzimləyə biləcəyi və hansı prinsiplərə əsasən tənzimlənəcəyi qeyd edilib. Tənzimləmənin dairəsi və prinsipləri var. Taksi daşımaları tarifləri nə həmin prinsiplərə uyğundur, nə də həmin dairəyə daxildir.

İki məhşur prinsip var: Birincisi, dövlət həmin qiymətləri tənzimləyir ki, orada təbii inhisarçılıq mümkündür. Məsələn, qazın, elektrik enerjisinin, suyun, benzinin əhaliyə satışı yaxud avtobuslarda gediş haqqı, metronun qiymətləri, bunları dövlət tənzimləyir. Əgər metronu nəzarətsiz buraxsaq, gediş haqqı bir manat olar.

İkincisi, tənzimlənən qiymət insanların gündəlik qaçınılmaz tələbatlarına aiddir. Məsələn, çörəyin, dərman preparatlarının qiyməti, həmçinin, avtobusta, metroda gediş haqqı və s. Buna görə də də sadalanan vasitələrin qiymətlərini dövlət tənzimləyir.

Taksi sərbəst xidmətdir. Onun qiymətini tənzimləməyə ehtiyac yoxdur. Buna qanun da imkan vermir, eyni zamanda, burada hər hansı bir iqtisadi əsaslandırma da yoxdur.

***Bəs, digər ölkələrdə necə?***

Burada arqument gətirilə bilər ki, axı, digər ölkələrdə bu praktika mövcuddur. Məlumat üçün bildirim ki, bu ölkələrdə tənzimləmələr çoxdandan var, necə ki, bizdə də Sovet dövründə var idi. Müasir dövrdə isə bu praktiki əhəmiyyətini itirməyə başlayıb. Çünki, yeni taksi daşıma variantları var və onlar daha praktik olmağa başlayıblar. Buna görə də ölkəmizdə sadalanan meyarlara və qanuna görə tariflərin dövlət tərəfindən tənzimlənməsinə də ehtiyac yoxdur. BNA-nın bu haqda irəli sürdüyü təklif, düşünürəm ki, kağız üzərində qalacaq. Çünki, bunun hüquqi və iqtisadi əsası yoxdur, sadəcə ideyadır.

***Əgər, tariflər tətbiq edilsə onda nə dəyişiklik ola bilər?***

Tariflər tətbiq edilsə belə ölkəmizdə Tarif Şurası bir qayda olaraq yuxarı qiyməti müəyyən edir. Bakı Nəqliyyat Agentliyi bildirir ki, bu üsulla sürücülərin vəziyyətini yaxşılaşdırmaq istəyir, daşımalar ucuzdur və onları istismar edirlər və s. Lakin, onsuz da Tarif Şurası tarifləri təyin edərsə, bunu yuxarı həddə müəyyən edəcək. Məsələn, bu gün üçün avtobuslarda gediş haqqı 30 qəpik yuxarı həddə götürülür. Əgər, hansısa bir şirkət sərnişin daşımalarını 10 qəpikdən həyata keçirərsə, ona heç kim qadağa qoya bilməz. Taksilərdə də belədir, tənzimləmələr olsa belə yuxarı qiymətə tənzimlənəcək.

***Nigar Məmmədova***

## “Dövlətimiz hər bir vətəndaşın sağlamlığına xüsusi önəm verir”



“Dünya ölkələri yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısını almaqda və bununla da yenidən normal həyatın təmin edilməsində çətinlik çəkirlər. Virusun müalicəsi üçün Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən görülən tədbirlərə və əksər dünya ölkələrinin səylərinə baxmayaraq vaksinlər tapmaqda mümkün deyil. Ağır və çətin dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin vaxtında verdiyi qərarlar, Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən qabaqlayıcı və effektiv tədbirlər nəticəsində ölkə ərazisində koronovirus infeksiyasının geniş yayılmasının qarşısının alınması na nail olundu”. Bunu “Səs” qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyasının Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov deyib. Onun sözlərinə görə, görülən sərt karantin tədbirləri nəticəsində insanların sağlamlığı və təhlükəsizliyi təmin olunub: “Bu ilin yanvar ayında ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması haqqında sərəncam imzalamışdır. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Sərəncamı əsasında “Azəbaycan Respublikasında yeni koronavirus infeksiyasının yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı” təsdiq edilmişdir. Ölkə üzrə sərt karantin tədbirlərinin tətbiqi, infeksiyanın diaqnostikası məqsədilə testlərin vaxtında alınması və virusa yoluxan insanların müalicəsinin düzgün və uğurlu şəkildə aparılması dövlətimizin hər bir vətəndaşın sağlamlığına xüsusi önəm verdiyini göstərir. Stasiki açıqlamalara əsasən demək olar ki, bu günə qədər 20-yə yaxın labarotoriyada 500 min insanın testi aparılıb. Hazırda ölkəmizdə koronavirus xəstələri 22 dövlət xəstəxanasında müalicə olunur. Bu günlərdə Bakıda 575 çarpayılıq “Yeni klinika” və ölkəmizin 3 şəhərində ümumi çarpayı sayı 500-dən çox olan 3 yeni xəstəxana istifadəyə verilmişdir. Cənab Prezidentin göstərişi əsasında hər birində 200 çarpayı yeri olmaqla müasir modul tipli 10 xəstəxananın inşasına başlanılmışdır və bu günlərdə Fövqəladə Hallar Nazirliyinin modul tipli qospitalının açılış mərasimi keçirildi. Əhalinin maskaya və spirt məhlumarına olan ehtiyaclarını ödəmək üçün Prezident İlham Əliyevin tapşırığı əsasında mart ayında Sumqayıt şəhərində müəssisə yaradıldı”.

B.Abbasov onu da bildirdi ki, karantin dövründə evdə qalan və işsiz kimi qeydiyyata alınan 600 min insana aylıq 190 manat olmaqla yardım göstərildi: “Prezidentimizin Sərəncamı əsasında həkimlərin və aidiyyəti üzrə pandemiya ilə mübarizə sahəsində çalışan işçilərin əmək haqları əhəmiyyətli dərəcədə artırıldı. Aztəminatlı insanlara və sosial cəhətdən həssas qrupa aid edilən ailələrə yardımlar göstərildi. Sahibkarlara və işsiz vətəndaşlara dəyən zərərin ödənilməsi dövlət büdcəsindən, 3, 5 milyard manat maliyyə vəsaiti ayrılıb. Nəticədə 300 minə yaxın mikro sahibkarın maliyyə vəziyyəti təmin edilib. Ümumilikdə, 1 milyon 629 min işçinin, o cümlədən dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğu təmin edilib. Bununla yanaşı işsizlikdən sığorta ödənişlərinin təmin edilməsi müddəti uzadılıb. Bütün bunlara əsaslanaraq demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə pandemiyanın vurduğu zərərin azaldılması istiqamətində həyata keçirilən mütərəqqi görülər ölkələr üçün nümunə ola bilər”.

Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərindən “Son aylar ərzində görülmüş işlərə baxmaq kifayət edər ki, hər kəs görsün nə qədər böyük işlər görülübdür. Biz təqribən 5 milyona yaxın insanı geniş sosial paketlə əhatə etdik. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Əks təqdirdə, 760 min insan işsiz qala bilərdi. Çünki onların çalışdıqları sektorlar pandemiya nəticəsində ən böyük zərər görmüş sektorlardır. Təbii ki, sahibkarlar, işəgötürənlər indi gəlir əldə etmirlər və beləliklə, yüz minlərlə insan işsiz qala bilərdi. Yenə də dövlət operativ tədbirlər nəticəsində dərhal bu məsələyə müdaxilə etdi. Əlbəttə ki, bu məqsədlər üçün böyük maliyyə resursları xərclənibdir. Altı yüz min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatə olunubdur. Onlara artıq bir neçə ay ərzində 190 manat müavinət verilir. Hesab edirəm ki, bu sosial dəstək bundan sonra da davam etdirilməlidir” sitat gətirən B.Abbasov bildirdi ki, hazırda Azərbaycan virusa yoluxanların və vəfat edənlərin sayına, habelə sağalanların sayına görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır: “Pandemiyaya qarşı mübarizədə əldə olunan uğurlara, xüsusi ilə də əhalinin sosial iqtisadi durumunun təmin olunmasında görülən işlərə, atılan müsbət addımlara görə, Prezident İlham Əliyevə minnətdarıq. Çünki, müsbət nəticələr məhz ölkə Prezidenti İlham Əliyevin pandemiyanın yayıldığı ilk gündən həyata keçirdiyi siyasətin nəticəsində mümkün olub. Bunu qədir bilən xalqımızda görür və yüksək qiymətləndirir. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirmişdir. Bütün bunlar pandemiyanın tamamilə aradan qaldırılaraq, ölkəmizdə normal yaşayışın təmin olunacağına əminlik yaradır”.

***İlham***

## ÜDM artımı gözlənilir

Ümumi Daxili Məhsul (ÜDM) 2021-ci ildə artım tempinə qayıdacaq. SİA xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair rəyində bildirilir. Sözügedən rəyə əsasən, əgər dünya bazarında Azərbaycan neftinin qiyməti büdcədə nəzərdə tutulduğu kimi il üzrə ortalama 35 dollar qalarsa, bu zaman 2021-ci ildə ÜDM 3 faiz artacaq.




Həmçinin, sənayenin qeyri-neft sektorunda məhsul istehsalının 2021-ci ildə 8,1 faiz artacağı, eyni zamanda neft sektorunda 3,0 faiz artım proqnozlaşdırılır.

Növbəti illərdə ÜDM-nin artım tempinin 2022-ci ildə 4,8 faiz, 2023-cü ildə 3,7 faiz, 2024-cü ildə isə 3,1% olacağı gözlənilir.

## Manatın 2021-ci il üçün məzənnəsi açıqlandı



Makroiqtisadi sabitliyin qorunması məqsədilə fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin gücləndirilməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalacağını dəstəkləyəcək. SİA xəbər verir ki, bu barədə 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Maliyyə Nazirliyinin açıqlamasında bildirilir. Qeyd olunub ki, makroiqtisadi sabitliyin təmin olunması və həyata keçirilən iqtisadi islahatlar, dollarlaşma meyllərinin səngiməsi və sair digər amillər nəzərə alınaraq, 2021-ci il üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi 1,7 səviyyəsində götürülüb. “Eyni zamanda inflyasiya səviyyəsinin tənzimlənməsi və məzənnə sabitliyi baxımından makroiqtisadi risklərin reallaşması ortamüddətli dövrdə əhalinin sosial rifah göstəricilərinə müsbət təsir edəcək”, deyə Maliyyə Nazirliyinin açıqlamasında bildirilir.

# Paşinyanın növbəti məkrli niyyəti...

## İşğalçı ölkənin baş naziri “Qarabağ Ermənistandır” deyirsə, onda Ermənistan da Azərbaycandır”

***Son aylarda Ermənistanın Baş naziri Nikol Paşinyanın qondarma Dağlıq Qarabağ Respublikasına səfərləri intensivləşib. Demək olar hər ay Xankəndinə səfər edən Paşinyan orada özünəməxsus açıqlamalar verməkdə davam edir. Öz hakimiyyətini əldə saxlamaq və Qarabağın erməni icmasının rəğbətini qaznmaq üçün Paşinyan Xankəndinə son səfərində ötən əsrin 80-ci illərinin sonlarında separatçılar tərəfindən irəli sürülən “miatsum” şüarını işə salıb.***



O, Xankəndində meydanda çıxışı zamanı “Arsax Ermənistandır” deyərək bununla da Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi faktını bir daha təsdiq etmiş olub. Özünə Dağlıq Qarabağın erməni icması arasında daha çox tərəfdar toplamaq məqsədi ilə Paşinyan deyib ki, “qarabağlı”, “irəvanlı”, “icevanlı” yanaşmalarına son qoymaq lazımdır, “hamımız ermənìyik”. Bu da onu göstərir ki, ermənilər arasında “irəvanlı” və “qarabağlı” çəkişməsi var. Dağlıq Qarabağdan olmayan Nikol Paşinyan isə separatçıları özünə düşmən kimi görmək istəmir. Çünki o bilir ki, hakimiyyətinə ən böyük təhlükə məhz Dağlıq Qarabağın erməni icmasından gəlir.

Paşinyanın işğal altında olan Azərbaycan ərazilərinə, o cümlədən Dağlıq Qarabağa səfərinin də arxasında Xankəndində hakimiyyətə öz adamını gətirməsi cəhdləri dayanır. Belə ki, gələn ayın əvvəllərində qondarma respublikada seçkilər keçiriləcək. Paşinyan bundan istifadə edərək seçkilərdə öz adamının qalib gələməsini təmin etmək üçün bütün cəhdlərdən istifadə edir.

### Azərbaycan Xarici İşlər Nazirliyindən sərt reaksiya

Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyindən Paşinyanın açıq şəkildə “Arsax Ermənistanındır” deməsinə Azərbaycan Xarici İşlər Nazirliyindən sərt reaksiya göstərilib. Bəyanatda deyilir ki, Ermənistan baş nazirinin 5 avqust tarixində Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanılan Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərində “ümumerməni oyunları”nın açılışında çıxış edərək, reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir.

XİN-dən bildirilib ki, bəyanatının əsasən daxili auditoriyaya nəzərdə tutulmasına baxmayaraq, bu, Ermənistan baş nazirinə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin anneksiyasına çağıran fikirlər səsləndirməsinə heç bir əsas vermir.

“Ermənistan baş nazirinin aqressiv bəyanatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə illərdir aparılan danışıqlar prosesinin ruhu və mahiyyəti ilə, o cümlədən Ermənistan və Azərbaycan arasında keçirilən sonuncu görüşlər zamanı aparılan müzakirələrlə açıq ziddiyyət təşkil edir. Bu, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir ki, aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı, elə Ermənistanın özünün səsləndirdiyi, “münaqişənin yalnız sülh yolu ilə həlli” çağırışına uyğun gəlmir”.

Bəyanatda, həmçinin bildirilir ki, bütün beynəlxalq ictimaiyyət işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrimiz də daxil olmaqla Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü tanıyır: “Ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstək istər, BMT TŞ-nin müvafiq qətnamələri, digər beynəlxalq təşkilatların qərar və qətnamələrində, istərsə də ikitərəfli əsasda qəbul edilmiş çoxsaylı sənədlərdə öz əksini tapıb. Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması və öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcək”.

Göründüyü kimi, hənsı formaya düşürsə düşsün, hansı oyunu oynayırsa oynasın artıq bütün dünya dövlətləri, həmçinin erməni ictimaiyyəti Paşinyanın xislətini, niyyətini, riyakar, yalançı, oğru, savadsız olduğunu görür.

### <u>Elxan Şahinoğlu:</u> “Ermənilər vaxtilə Levon Ter-Petrosyanı devirdilər, indi də Paşinyana qarşı blok formalaşdırırlar”

Politoloqu Elxan Şahinoğlu Nikol Paşinyanın Xankəndində səsləndirdiyi fikirlərlə bağlı deyib ki, baş nazir bu durumu dəyişmək gücündə deyil, həmin ermənilər vaxtilə Levon Ter-Petrosyanı devirdilər, indi də Paşinyana qarşı blok formalaşdırırlar. Politoloq bildirib ki, Paşinyanın Xankəndində erməni auditoriyasına hesabladığı çıxışdan asılı olmayaraq, rəsmi Bakı bu çıxışa iki şəkildə reaksiya verməlidir: “Birincisi, beynəlxalq təşkilatlardan Paşinyanın çıxışına reaksiya tələb olunmalıdır. Çünki Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yanaşması danışıqların sona çatdırılması və müharibənin elanı anlamına gəlir. İkincisi, Azərbaycandan yüksək səviyyədə Paşinyanın “Arsax Ermənistandır” açıqlamasına ən azı bu şəkildə cavab verilməsi məqsədəuyğundur: “Dağlıq Qarabağ Ermənistandırsa, onda Ermənistan da Azərbaycandır”.

Politoloq xatırladıb ki, “miatsum” (birləşmək) şüarı Dağlıq Qarabağ separatçılarının 1980-ci illərin sonunda səsləndirdikləri ilk şüar idi. Daha sonra bu şüardan imtina etdilər. Çünki separatçılar və onların arxasında dayanan güclər də anladılar ki, “birləşməni” beynəlxalq aləm anneksiya kimi qəbul edəcək və separatçılar lazımi dəstəkdən məhrum olacaqlar: “Məhz bu səbəbdən separatçılar Ermənistanla birləşmək şüarından vaz keçdilər. Dünyanın digər ölkələrindəki separatçılar kimi “müstəqillik” uğrunda mübarizəyə başladılar, torpaqlarımızın sonrakı işğalı da “müstəqillik ideyası” adı altında həyata keçirildi. Ermənistana rəhbərlik edən nə Levon Ter-Petrosyan, nə də qatı separatçılar Robert Köçəryan və Serj Sarkisyan “Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi” ideyasını səsləndirdilər. Çünki onlar da iki mühüm amilə görə bunu etmirdilər. Birincisi, onlar anlayırdılar ki, “birləşmə” ideyası Ermənistanın “Dağlıq Qarabağın Azərbaycandan ayrılması” mübarizəsinin beynəlxalq aləmdəki mövqelərini zəiflədəcək. İkincisi, “Dağlıq Qarabağın Ermənistana birləşdirilməlidir” ideyasının səsləndirilməsi faktiki danışıqlardan imtina edilməsi, atəşkəsin intensiv pozulması, o cümlədən, Azərbaycanla müharibə ehtimalını artırırdı. Ermənistanın keçmiş rəhbərləri bunun qorxusundan hətta Ermənistan parlamentində “Dağlıq Qarabağın tanınması” səsverməsini də hər dəfə təxirə salırdılar”.

E.Şahinoğlu qeyd edib ki, Ermənistanın hazırki baş naziri Nikol Paşinyan xələflərindən fərqli yol seçdi: “O, çoxdan unudulmuş “miatsum” şüarına qayıtdı və avqustun 5-də (bu tarixi unutmamaq lazımdır) elan etdi ki, “Arsax elə Ermənistandır”. Paşinyanın Dağlıq Qarabağdakı mövqeləri zəifdir və bölgədə gələn ilki “prezident seçkisində” öz adamını kürsüdə otuzdurmaq istəyir. Paşinyan “Qarabağ elə Ermənistandır” şüarını bəlkə də bu məqsədlə söyləyib ki, onun namizədi yeni “şüarla” seçki kampaniyasına başlasın. Nikol Paşinyanın məqsədi nə olursa-olsun, Ermənistanın baş naziri səsləndirdiyi “şüarla” qırmızı cizgiləri aşdı. Artıq dünəndən başlayaraq Dağlıq Qarabağda erməni separatçılığının başında dayanan şəxslər də “miatsum” şüarına qayıdışın onlara baha başa gələcəyinə dair ehtiyatlı açıqlamalar verməyə başlayıblar. İstisna etmirəm ki, “Qarabağ klanının” lideri Robert Köçəryan da yaxınlarda həbsxanadan Paşinyana təhlükəli oyuna girişdiyinə dair açıqlama verəcək. Vəziyyət nə qədər qəribə olsa da, Köçəryanın bu mövzuda Paşinyan əleyhinə verəcəyi açıqlama bəlkə də münaqişənin başladığı uzaq 1980-ci illərdən bu tərəfə Azərbaycanın gələcək planında əlini gücləndirəcək”.

Politoloq vurğulayıb ki, Azərbaycan bu durumda 3 amilə diqqət yetirməlidir: “Birincisi, dərhal beynəlxalq təşkilatlardan Paşinyanın açıqlamasına münasibət bildirilməsi tələb olunmalıdır. Paşinyandan izahat tələb olunmalıdır. Paşinyanın Xankəndindəki açıqlamasının təsdiqi də, inkarı da xeyrimizədir. Təsdiqi manevr imkanlarımızı genişləndirə bilər, inkarı Paşinyanın ermənilər arasındakı mövqelərini zəiflədəcək.

İkincisi, Azərbaycan XİN Müdafiə Nazirliyi ilə birgə sərt bəyanat yayınlamalıdır. Paşinyan Xankəndidəki çıxışı ilə buna qədər olan şifahi razılaşmaların üstündən xətt çəkir, ortada nə “Praqa porsesi”, nə də “Madrid planı” qalır.

Üçüncüsü, əslində Nikol Paşinyan bəlkə də anlamadan Azərbaycan Ordusu üçün manevr imkanlarını genişləndirir. Bu şansdan isti-isti istifadə etmək lazımdır. Dünya tarixindəki müharibələr hansısa yanlış açıqlamadan və hərəkətdən başlayıb. Ancaq bu qərarın verilməsi də asan deyil. Ordunun istədiyi kimi hərəkət etməsi üçün siyasi qərardan əlavə düşmən müttəfiqinə işləyən mexanizm tam neytrallaşdırılmalıdır. Bunu da etməliyik”.

### Paşinyanın ailə mafiyasına xidmət edən səfəri...

Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərə səfərinin ən əsas məqamı da ailə mafiyası üstündə öz şəxsi mənafelərini həyata keçirməkdir. Belə ki, Paşinyanın Qarabağa səfəri də ailə biznesini genişləndirmək, Azərbaycanın işğal olunmuş. ərazilərində qızıl və digər metalların qeyri-qanuni istismarından payını götürmək niyyəti daşıyır. Bu səbəbdən bu bölgənin müharibə zonasında olması ona sərf edir. Paşinyan sələflərinin xəttini davam etdirərək cəbhə bölgələrində azərbaycanlı mülki əhalinin, yaşayış məntəqələrinin davamlı olaraq atəşə tutulmasında xüsusi fəallıq göstərir. Ermənistan rəhbərliyi və onun ətrafı yaxşı anlayır ki, onlar bizimlə döyüşə hazır deyillər və bu səbəbdən çalışırlar ki, imkan daxilində öz şəxsi korporativ maraqlarını təmin etsinlər.

Politoloqun sözlərinə görə, bu gedişlə Ermənistan heç vaxt tənəzzüldən qurtula bilməyəcək və məhvə məhkumdur. Azərbaycan dövlətinin, Ordusunun gücünü nəzərə almayan bu ölkənin müqəddəratı sual altındadır. Paşinyan hakimiyyəti son variant olaraq 100 minlik könüllülər ordusu yaratmaq istəyir və buraya Livandan gələn erməniləri də cəlb etmək fikrindədir. Əslində, bu, terrorçu ordu olacaq. Ümumiyyətlə, Paşinyanın dünyada baş verən proseslərlə bağlı heç bir məlumatı yoxdur. Livanlılar Cənubi Qafqazda nə baş verdiyini bilirlər. Təbii ki, onlar bir münaqişə zonasından ikinci münaqişə bölgəsinə keçməyi qətiyyən istəməzlər.

Politoloq onu da bildirib ki, Azərbaycanın dövlət siyasətinin mahiyyəti ondan ibarətdir ki, Ermənistanın və onun hakimiyyətinin faşist ideologiyasını, siyasətini ifşa etsin, onların iç üzünü, Paşinyan hökumətinin destruktiv rolunu bütün dünyaya göstərsin: “Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Çünki işğalçı Ermənistan 30 ildir Azərbaycan ərazilərini işğal altında saxlayır. Ölkəmizin ərazi bütövlüyü dünya miqyasında tanınır. Azərbaycan öz ərazi bütövlüyünü nəyin bahasına olursa olsun bərpa edəcək”.

Göründüyü kimi, Paşinyanın Qarabağa səfəri göstərir ki, bu işğalçı dövlət münaqişənin danışıqlar yolu ilə həllində maraqlı deyil. Paşinyan nəinki siyasi cəhətdən natamam fiqur olmaqla kifayətlənmir, eyni zamanda özünün və ailə üzvlərinin adı mafiyalar qurmaqda, dağ-mədən sənayesi məhsulları, silah satışı və siqaret alverində hallandırılır. Onun Qarabağa səfəri də məhz ailə biznesini genişləndirmək, Azərbaycanın işğal olunmuş ərazilərindən qızıl və digər metalların qeyri-qanuni istismarındakı payını götürmək niyyəti daşıyır.

### Azərbaycan dövləti ərazi bütövlüyünü təmin etmək üçün hər an güc variantından istifadə etmək hüququna malikdir

Lakin N.Paşinyan anlamalıdır ki, danışıqlar masasına gəlməyən anda Azərbaycan dövləti ərazi bütövlüyünü təmin etmək üçün hər an güc variantından istifadə etmək hüququna malikdir. İşğalçı dövlət yeni hərbi təxribatlara əl atdığı təqdirdə Azərbaycan birmənalı şəkildə düşmənə layiqli cavab verəcək. Bunun üçün isə Azərbaycanın kifayət qədər iqtisadi və hərbi gücü, eyni zamanda dövlətin siyasi iradəsi və xalqın əzəli torpaqlarını geri qaytarmaq əzmi mövcuddur.

Beləliklə hadisələrin gedişi göstərir ki, küçə nümayişi ilə hakimiyyətə gələn və faktiki olaraq ölkəni idarə etmək üçün siyasi təcrübəsi olmayan Paşinyan özünü nəinki daxili auditoriya, həm də beynəlxalq aləm qarşısında pis vəziyyətdə qoyub. Bütün bunlar isə Paşinyana və onun rəhbərlik etdiyi Ermənistana yaxşı heç nə vəd etmir.

İflasa uğradıqdan sonra yeni təxribatlara əl atan, yalandan və siyasi blefdən peşəkarlıqla istifadə edən Ermənistan hakimiyyəti artıq anlamalıdır ki, Azərbaycan xalqı işğal altındakı torpaqlarını tezliklə azad edəcək. Haqq, ədalət mübarizəsində yenə də məğlub Ermənistan olacaq.

***A.SƏMƏDOVA***

# Müxalifətçi fəal Əli Kərimlini "şarlatan" adlandırdı

**Məlum olduğu kimi, Nizami rayon məhkəməsinin qərarı ilə Müsavatçı funksioner, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Tofiq Yaqubluya 4 il 3 ay müddətinə azadlıqdan məhrumetmə hökmü verilib. Belə ki, T.Yaqublu öz cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.**

Lakin bu arada T.Yaqublunun ətrafında müxalifətdaxili çaxnaşmalar da səngimək bilmir. Məsələ ondadır ki, AXCP sədri Əli Kərimli müxalifətçi fəal Qiyas İbrahimov tərəfindən hədəfə alınıb və ona qarşı sərt fikirlər səslənib. Əsasən, AXCP sədrinin nəyə görə T.Yaqublunun məhkəmə iclaslarına qatılmaması məsələsi qabardılıb. Məhz bu ittiham Ə.Kərimlini özündən çıxarıb və müsahibələrinin birində qarşı tərəfi - Q.İbrahimovu təhqir atəşinə tutub, aşağılayıcı fikirlər səsləndirib.

Qiyas İbrahimov: "Yenə deyirəm, Yaqublu bu şarlatanlardan uzaq olmalıdır".

Məhz bunun nəticəsində Q.İbrahimov AXCP sədri Ə.Kərimlini yenidən hədəfə alaraq, öz sözündə dayandığını bəyan edib, təhqirinə isə təhqirlə cavab verib. Qiyas İbarahimov Əli Kərimlini ifşa edən status paylaşıb və yazıb ki, Tofiq Yaqublunun rəsmi partiyadaşları olan Müsavatın "baş bəyləri" onun məhkəməsinə heç olmasa bir-iki dəfə gəlib, 15-20 dəqiqə sonra da gediblər. Amma dəfələrlə Ə.Kərimlinin qoluna girərək aksiyalarda iştirak edən T.Yaqublu öz məhkəmə iclaslarında bu adamı görmədi: "Bunları bildik, 120 nəfərlik məclisdə yer verməmişdilər Yaqubluya. Amma Tofiq Yaqublunun hamıdan çox dəstək olduğu, qolunda dartıb küçəyə çıxardığı Əli Kərimli də özünə əziyyət verib gəlmir məhkəmə duruşmalarına. Bunun da səbəbi sadədir. Bu qədər dirənən Tofiq Yaqublunun həbsdən növbəti çıxışında (elə indi də) artıq nüfuz baxımından Kərimli filandan çox yuxarı olacağı onu bərk narahat edir. Yenə deyirəm, Yaqublu bu şarlatanlardan uzaq olmalıdır".



*AXCP sədrinin Tofiq Yaqublunun məhkəməsində iştirak etməməsi üzünə vuruldu*

**Düz sözə nə deyəsən ki..?**

Əslində, buradan həm də belə nəticə çıxarmaq olar ki, artıq Ə.Kərimli az qala ona görə öz partiyasından - Müsavatdan istefa verməyə hazır olan, müsavatçıların deyil, daim onun mövqeyini dəstəkləyən T.Yaqublunu da yazır qurbanları sırasına. Çünki məhz AXCP sədri hazırkı dövrə qədər onlarla tərəfdaşını öz kirli siyasi maraqlarına qurban vermişdi, Yaqublu isə növbətisidir.

Q.İbrahimov ona da eyham vurub ki, T.Yaqublunun radikal müxalifət düşərgəsindəki nüfuzu Ə.Kərimlinin nüfuzundan artıqdır və AXCP sədri ehtiyat edir ki, T.Yaqublu onu bu məsələdə önləsin. Ona görə də, nə məhkəmələrinə getdi, nə də ümumiyyətlə, sosial şəbəkələrdəki münasibətlərindən artıq heç nə etmədi. Bu isə söz yox ki, Q.İbrahimovu qıcıqlandırıb və nəticə etibarı ilə Ə.Kərimlini ifşa etməsi ilə yanaşı, onun və ətrafının şarlatan xislətli olduqlarını bildirib. Burada isə sözün doğrusunu deyib, necə deyərlər, düz sözə nə deyəsən ki..?

*Rövşən RƏSULOV*

# Sosial şəbəkələrin troll "madonnası" danışdıqca...

## *Gültəkin Hacıbəyli insanların haqqına girdiyi vaxtları nə tez unudub*

Bu gün radikal müxalifət düşərgədə olanlar bütün mənəvi-əxlaqi sədləri aşaraq Azərbaycanın uğurlarından qaşınmaya düşüblər. Xüsusilə də, özünü "Milli Şura"nın əzəli və əbədi, "cəfakeş" üzvü, adlandıran, müxalifətçi libası altında siyasi meydanda əsl çılpaqlıq nümayiş etdirən Gültəkin Hacıbəyli yenə də yuyulmamış çömçə kimi sosial şəbəkələrdən düşmür. Özünü "xalq yanğısı" kimi göstərən bütün mənliyini qrantlara satan Sevinc Osmanqızı kanalına da özü kimi simasız, satqın və mənəviyyatsızları çağırmaqla əsl simasını bir daha nümayiş etdirir. Elə bu günlərdə kanalında erməniləri müdafiə etməkdən yorularaq Azərbaycanda bəzi məmurların karantin rejiminin qanunlarını pozması ilə bağlı yaratdığı qanun pozuntularına dəstək olan min sifət, AXCP-nin satqın və satılan riyakar, xalqın düşməni Əli Kərimlinin katibi "vəzifəsini" yerinə yetirən Gültəkin Hacıbəylinin belə şou göstərməsi nə birincidir, nə də sonuncu. Ancaq anlamırlar ki, hər dəfə belə şou göstərməklə bir daha ermənidən betər olduqlarını göstərirlər. Dərdiniz başqa dərddir. Bütün oyunlardan çıxdınız. İndi də cinayətkarları həm dəstəkləyirsiniz, həm də dövlətin ünvanını təhqir, böhtan fikirlər söyləyirsiniz.



Dərdiniz nədir sualını vermək istəməzdim. Bəllidir. Ən maraqlısı isə, G.Hacıbəyli və S.Osmanqızı ilk cümləsini xalqa çağırışla başlayır. G.Hacıbəyli: "Hadisələr haqqında düzgün məlumatlanmaq istəyirsinizsə bizi izləyin", S.Osmanqızı: "Kanalımız xalqımızı ancaq və ancaq düzgün məlumatlar çatdıracaq". Bu qədər də ağ yalan olmaz. Şahidəm ki, insanlar arasında olan kəs kimi, sosial şəbəkədə səsinizi və üzünüzü görən kimi, tamaşaçı "odboy" edir. Bax, nankor və bədbəxtlik buna deyirlər. Çünki ermənilər kimi, sizlərin də satqın, ermənidən də betər olanın "vətən yanğısı"nı bu xalq, bu Vətən, bu dövlət satan ola bilməz. Guya "vətən üçün ağlayırsınız?". Yadında saxla: hər kəs ağlaya bilməz.

İnsanların haqqına girdiyi vaxtları nə tez unudmusan?

Və bu gün hansı haqdan danışırsan, Gültəkin Hacıbəyli? Vaxtilə Milli Məclisin deputatı olarkən yol verdiyi qanunsuzluqlarla bağlı ötənlərə bəlkə nəzər yetirəsən. Bu gün "Milli Şura" adlı marginal qrupda oturub səfeh bəyanatlarla gündəmə gəlməkdənsə, deputat olduğu dövrdə törətdiyi qanunsuzluqları çığır-bağırla, söyüşlə təkzib etməklə yox, faktlarla çatdırmaq istərdik. Ancaq bunlar müəyyən bildiklərimizdir: Goranboy rayonu, Xan Qərvənd kəndində 92 sotluq torpaq sahəsi və onun üzərində yerləşən 400 kv. metr sahəsi olan nəhəng villa; Abşeron rayonu , Xırdalan şəhərində 60 sot torpaq sahəsi; Goradil kəndində 30 sot torpaq sahəsi; Abşeron rayonu, Mehdiabad qəsəbəsində hər biri 4 sot olmaqla 3 yerdə topaq sahəsi; Abşeron rayonu, Mehdiabad qəsəbəsində 6 sot torpaq sahəsi; Şamaxı rayonu, Qalebuğurd kəndində 12 sot torpaq sahəsi; Səbail rayonu, Şeyx Şamil küçəsində ofis; Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251 a ünvanında 178,18 kv. metr sahəsi olan mənzil; Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251 A ünvanında 179,14 kv metr sahəsi olan digər mənzil; Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti, ev 12/26 ünvanında 63,3 kv metr sahəsi olan mənzil; Bakı şəhəri, Səbail rayonu, Mehdi Hüseyn küçəsi 61, ev 2 ünvanında mənzil; Bakı şəhəri , Nəsimi rayonu , Səməd Vurğun küçəsi, ev 92 A ünvanında mənzil...

İndi bu günü sosial şəbəkələrdən sənin kimi korrupsionerləri vaxtı ilə tənqid edirdinsə, bu gün onların təbliğatını aparırsan və ürəkdolusu deyirsən ki" artıq Əli İnsanov, Ramiz Mehdiyev tərəfinə keçir". Gör nəyə sevinirsiz. Bu belə də olmalıdır. Dünən sən də iqtidarda idinsə, sonra oldun müxalifətçi, sabah isə heçnə olacaqsan. Ancaq bir həqiqəti anla ki, sənin kimi dələduzlar xalqın qınağından çıxa bilməyəcəklər. Və bu gün cinayətkarın qanun qarşısında cavab verməsini "demokratiya boğulur", "haqqınızı tələb edin" çağırışları etməklə bir daha əsl simanı göstərirsən. Bilməlisən ki, Azərbaycan hüquqi dövlətdir, hər kəs də qanunlara riayət etməlidir. Bu gün sənin kimi cəsus bütün bunlardan niyə ibrət dərsi almır?. Bəlkə elə zənn edirsən ki, Leninin oktyabr inqilabı kimi, nəyəsə nail olacaqsınız?. Doğurdan da çox abırsız və mənəviyyatsınız. Həyasızlıq bu qədər də olmaz. Amma nə Əli Lenindi, nə də sən "demokrat". Hər ikinizin özünüz kimi bir adınız var: NANKORLAR!

Azərbaycan xalqı koronavirus epidemiyasından çıxdıqdan sonra dövlətin, millətin maraqlarını heçə sayan sənin kimi anti-milli ünsürlərin şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Bu haqq-hesab isə çox ağır olacaq!

*Rəfiqə HÜSEYNOVA*

## "Əli Kərimli Avropadan idarə olunur"

***Son günlər xaricidəki "söyüş müxalifət"i ilə AXCP-nin sədri Əli Kərimli arasında daha sıx əlaqələr, əməkdaşlıq münasibətləri yaranıb. Təbii ki, bu kimi əlaqələr yeni təxribatların, pozucu aktların planlaşdırılıb, həyata keçirilməsinə hesablanıb. Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi (ADİİM) İctimai Birliyinin sədri Cavid Şahverdiyev "Səs" qəzetinə açıqlamasında bildirdi ki, AXCP sədri və özünü müxalifətin "anası" adlandıran Əli Kərimli heç vaxt demokratik, sivil siyasi mübarizə aparmayıb: "Çünki onda demokratik dəyərlər yoxdur. Kərimli həmişə Avropadakı anti-Azərbaycan qüvvələrin və ermənipərəst dairələrin təşkil etdikləri mübarizə metodlarından istifadə edib.***



O, hələ də bu vaxtadək dərk etməyib ki, siyasi mübarizə, bir növ, yarış xarakteri daşımalıdır, intellekt mübarizəsi aparmalıdır, bu mübarizəni ağılla, dərrakə ilə aparmaq lazımdır. Ortaya alternativ proqramlar, potensial qoymalıdır, ölkənin milli maraqlarına cavab verən layihələrdən danışmaq lazımdır. Bunların heç biri Ə.Kərimlidə yoxdur, çünki onun təfəkküründə, düşüncəsində, əqidəsində Azərbaycan hakimiyyəti ilə yanaşı, dövlət və dövlətçiliyinə qarşı mübarizə yer alıb. Bunun üçün istənilən metodlardan istifadə edib. Təki sifariş və tapşırıq aldığı Avropadakı donorlarının etimadını itirməsin".

C.Şahverdiyev onu da bildirdi ki, Ə.Kərimli ölkədə sivil, demokratik siyasi mübarizə aparmaq əvəzinə inqilab tərəfdarı kimi çıxış edir: "Ölkəmizi istəməyən kifayət qədər xarici və daxili qüvvələr var ki, hər zaman iğtişaş yaratmaqda maraqlıdırlar. Ə.Kərimli Azərbaycanda qarşıdurma yaratmaqda maraqlı olduğunu heç vaxt gizlətmir. Bu gün millətini, dövlətini, xalqını sevən hər bir insan ölkəmizdə bütün sahələrdə davamlı inkişafın olmasında, insanların sosial rifah halının yüksəlməsi istiqamətində islahatlar aparılmasında maraqlıyıq. Kərimli kimi insanlar fəaliyyətlərini isə bunun əksinə istiqamətləndiriblər".

C.Şahverdiyev onu da bildirdi ki, Kərimli köhnə mübarizə üsullarını, "söyüş müxalifət" liderliyindən əl çəkmək istəmir: "Söyüş, qarğış daha çox qadınlar arasında davalarda eşidilər. Yəni bu üsul onlara xasdır. Amma Kərimli bu üsula məharətlə sahib çıxa bilib. Azərbaycanda sosial bazasını, yaxın ətrafını itirən Kərimli Avropaya üz tutmaq məcburiyyətində qalıb. Seçimi yox idi. Ona ancaq oradakı anti-Azəraycan təbliğatı aparan bir neçə soydaşımız və Azərbaycanın güclənməsini, inkişafını həzm edə bilməyən erməni və erməniprəst qüvvələr qucaq aça bilərlər. Kərimlinin özü burada olsa da, ruhu, təfəkkürü Avropadadır. O Avropadan idarə olunur, dilləndirilir. Kərimli özünü müxalifətin "anası" yox, müxalifətin söyüş liderinə çevirib, necə deyərlər söyüş müxalifətinin "Xaç atası"dır. Maliyyəsini indi bu yolla əldə edir. Ləkəli siyasi karyerası boyunca çoxsaylı "ilk"lərə imza atan Əli Kərimli siyasətdə və sosial şəbəkələrdə bu dəfə söyüş və qarğışları ilə birinci olub. Kərimlinin status və fikri bütünlüklə söyüş və qarğışdan ibarətdir. Bu söyüş fərdə yox, bütünlüklə xalqa, dövlətə ünvanlanıb. Anti-Azərbaycan təbliğatı aparan Avropadakı əksər sosial şəbəkə istifadəçiləri və internet kanallarına Kərimli nəzarət edir. Adları çəkilən kanalların içərisində "şərh" bölümündə ən çox təhqir və söyüşə yer verən "Azərbaycan saatı"dır. Bu kanal Əli Kərimlinin nəzarətindədir və trolların böyük əksəriyyətini cəbhəçilər təşkil edir. Kərimli və onun ətrafı söyüş və qarğışı adi danışıq tərzinə çeviriblər. Bu gün söyüş meydanı deyil, sivil, demokratik siyasi mübarizə meydanıdır. Ağlın, saf təfəkkürün, siyasi dünyagörüşün varsa atıl meydana, yoxdursa, çəkil kənara, keçmişinə bax, sus, danışma..."

*Gülyana*

# Azərbaycançılıq dünya azərbaycanlılarının milli birliyinin əsasıdır

***Ümummilli lider Heydər ƏLİYEV demişdir:"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".***

Azərbaycançılıq coğrafi anlayış deyil, o daha çox siyasi anlayışdır. Azərbaycançılığın təkamülü təkcə nəzəri şəkildə deyil, həm də dövlətçilik xətti üzrə baş verir. O, konseptual bir nəzəriyyə kimi Azərbaycan dövlətçiliyinin mənşəyi, mərhələləri və tipləri vasitəsi ilə təsbit olunur.

Azərbaycançılıq azərbaycanşünaslığın, Azərbaycan dövlətçiliyi isə azərbaycançılığın tərkib hissəsidir. Dövlət insan və cəmiyyət arasında münasibətin ifadə formasıdır. Cəmiyyət ümumi maraq əsasında birləşmiş insanların toplumudur, fəqət cəmiyyətdə ümumi maraqla fərdi maraq arasında ziddiyyət labüddür. Cəmiyyətin taleyi bu iki marağın harmoniyasından asılıdır. Bu mənada dövlət cəmiyyətdə daxili qayda yaradan və xarici təhlükəsizliyi təmin edən ali siyasi hakimiyyət orqanıdır.

Əsrin əvvəllərində C.Məmmədquluzadə, F.B.Köçərli, A.Şaiq, Ü.Hacıbəyli, N.Nərimanov kimi maarifçi ideoloqlar "Ana dili" uğrunda mübarizəyə başladılar və tez bir zamanda bu hərəkat tarixi-ideoloji yön alaraq "Ana Vətən" uğrunda mübarizəyə çevrildi.

Tarixin tələbi və milli ziyalıların iradəsi ilə bu dövrdə "Füyuzat" türkçülüyü ilə "Molla Nəsrəddin" azərbaycançılığı eyni ideala - "Azərbaycan qayəsi"nə xidmət etdi. XX əsrin əvvəlində ADR-in yaranması millət kimi özünüdərkin, ana dili, vətən əxlaqı və milli vicdan uğrunda mübarizənin təntənəsi idi. Fəqət 23 aydan sonra aldanış və çevriliş nəticəsində o, proletariat diktaturası - "Zorakılığa arxalanan, heç bir qanunla bağlı olmayan bir hakimiyyət"lə (V.Lenin) əvəz olundu.

Filologiya elmləri doktoru, professor Nizaməddin ŞƏMSİZADƏ yazır ki, Azərbaycançılıq üç təməl üzərində bərqərar olur: türkçülük, islamçılıq və vətənçilik. Bizim şüarımız belədir: Türk millətindənəm, islam ümmətindənəm, Azərbaycan məmləkətindənəm! Türkçülük Azərbaycan xalqının milli idealı - məfkurəsidir. Türkçülüklə İslamın vəhdəti Məhəmməd Peyğəmbərdən gəlir. O ümmətinə belə demişdi: türklərin dilini öyrənin, onların hakimiyyəti uzun sürəcək. Təsadüfi deyil ki, ilk böyük ortaq türk abidələrindən olan M.Kaşqarinin "Divani-lüğəti-türk" (1074) əsəri islamın baş qərargahında Bağdadda ərəblərə türk dilini öyrətmək məqsədi ilə yazılmışdı. Ta qədim dövrlərdən türklərdə iki cəhət güclü olub: dövlətçilik (fatehlik) və mədəniyyət. Bütün böyük türk yürüşləri islam bayrağı altında keçib, onlar dünyada islamın nüfuzunu qaldıran ən böyük millətdir. Türkün fatehliyi işğal deyil, öz sərhədsiz ərazilərini (dövlətçiliyi!) qorumaq məqsədi daşıyıb.

Ərazi bütövlüyü və xalqın bütövlüyünü qorumaq! - Azərbaycançılığın tarixi qayəsi məhz budur. Vətəni zaman-zaman işğal olunmuş xalq üçün vətənçilikdən böyük ideal ola bilməz. Azərbaycançılıq türkəsilli Azərbaycan xalqının milli ideologiyası, türkçülüyün milli ideya və siyasi məslək kimi vətən əxlaqı müstəvisində dərkidir.

Milyon il əvvəl ölkəmizin ərazisində hansı tayfanın, hansı qövmün, hansı xalqın yaşaması Adəmin və Həvvanın hansı millətdən olması kimi əbədi bir mübahisədir. Amma mübahisəsizi budur ki, o zaman da, indi də yaşadığımız vətən Azərbaycan olub. Bu mənada azərbaycançılıq türkçülükdən, şamançılıqdan da, şumerçilikdən də qədim və əzəli fikir formasıdır.

Filologiya elmləri doktoru, professor Nizaməddin ŞƏMSİZADƏnin fikrincə, bir ideologiya forması, milli və dövlətçilik təlimi kimi azərbaycançılıq mədəniyyətlə sıx bağlıdır. Tarixi baxımdan ideologiya ilə mədəniyyətin vəzifələri eyni məqsəddə birləşir: gələcəyi formalaşdırmaq! Təhsil ideologiyasının təbliğ funksiyasını, mədəniyyəti təlqin vəzifəsini öz üzərinə götürür. İdeologiyada mədəniyyətin əsas vəzifəsi xalqda vətən əxlaqı tərbiyə etməkdir. Mədəniyyət dövlətin əlində kütləyə obrazlı ideoloji təsir vasitəsidir. Kütlə psixologiyası mədəniyyəti asanlıqla qəbul edir, burada obrazlı (emosional) inandırma həlledici rol oynayır. Mədəniyyətin sərhədsiz imkanları (gözəllik və estetik zövq) milli siyasətin dünyaya inteqrasiyasına perspektivlər yaradır. Azərbaycançılığın şah damarı - Azərbaycan dilidir. Azərbaycançılığın çağdaş dövlətçiliyə tətbiqi Heydər Əliyevin adı ilə bağlıdır. O, Azərbaycan əhalisində dövlətçilik duyğusunu gücləndirdi, dövlətə hörmət hissi formalaşdırmağa nail oldu. Xüsusilə 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra o, Azərbaycan dili, Azərbaycan tarixi və mədəniyyətini azərbaycançılıq məfkurəsi işığında dünyaya tanıtmaq üçün konsepsiyaların əsasını qoydu.

Məhz H. Əliyevin sayəsində azərbaycançılıq təkcə milli ideologiya yox, həm də çox qüvvətli dövlətçilik təlimi kimi nüfuz qazandı. Onun azərbaycançılıq nəzəriyyəsi sayəsində Azərbaycan dövləti çağdaş dünya inteqrasiyasında beynəlxalq diqqət mərkəzinə keçdi, sivil dövlət nümunəsi kimi həm Qərb, həm də Şərq aləmində qəbul olundu.

H. Əliyevin neft strtegiyası - əsrin müqaviləsi, regionların iqtisadi inkişafı konsepsiyası, Azərbaycanın Avropa Şurasına qəbul olunması, ölkənin ərazi bütövlüyü uğrunda aparılan dönməz mübarizə - bütün bunlar məhz azərbaycançılıq ideologiyasına dayaqlanır, onu daxili və xarici siyasətimizin nəzəri-tarixi arsenalı kimi möhkəmləndirmək işinə xidmət edirdi.

H. Əliyev özü azərbaycançılığın simvolu idi. Onun nitqlərində bütövlükdə Azərbaycan danışırdı. Bu gün də dövlətçiliyimizdə həmin tarixi-nəzəri ənənələr, iş üsulları ləyaqətlə qorunub saxlanılır. Fikrimizcə, Dünya Azərbaycanlılarının II Qurultayı azərbaycançılıq ideologiyasının təsdiqi və təntənəsi, onun yeni tarixi mərhələsinin başlanğıcı idi. Bu forum bütün dünyaya səpələnmiş 50 milyon azərbaycanlının bir araya gəlməsində azərbaycançılığın nəzəri-tarixi imkanlarını kifayət qədər əsaslı şəkildə nümayiş etdirdi.

Bəzi nəticələrə gələk: Azərbaycançılıq Azərbaycanda baş vermiş milli azadlıq hərəkatlarının tarixi təcrübələrinin nəzəri yekunudur. O, dünyada və ölkəmizdə gedən ictimai proseslərin tarixi mənasını Azərbaycan xalqının mənafeyi baxımından izah edir.

Azərbaycançılıq müstəqil, suveren Azərbaycanın tam tarixi istiqlalı uğrunda, bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Onun əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır.

O, diktaturadan, avtoritarizmdən demokratiyaya keçid dövrünün nəzəriyyəsi, milli özgürlüyümüz haqqında təlimdir.

Azərbaycançılıq imperiyaçılığa qarşı müqavimətdə formalaşan istiqlal ideologiyasıdır. Azərbaycanın suverenliyi milli prinsipə əsaslanır, azərbaycançılıqda həm də onun ideoloji prinsipləri təsbit olunur. O, qlobal siyasət üçün nəzəri bazadır, çünki, dövlətlərə və xalqlara yeni ictimai sahman və təfəkkür koordinatları diqtə edir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

Milli ideologiya tipi kimi azərbaycançılığın aşağıdakı şərtləri var: maarifçilik yolu ilə inandırma, tarixi əsaslandırma, təşkilatlandırma, istiqamətləndirmə və yenini yaratma. Azərbaycançılığın tərkib hissələri bunlardır:

- Məfkurəçilik (ülgüçülük), yəni sosioloji aspekt
- İstiqlalçılıq (kökə qayıdış - azadlığın tarixən mənimsənilməsi)
- İttihadçılıq (birlikçilik). Onun üç bağlantısı var: a)vətəndaşlıq; b)gendaşlıq; c) dindaşlıq;
- Türkçülük (milli ideya kimi)
- İslamçılıq (ümmətçilik formasında) - Şərqdə ümmətçilik dövlət yaratmaq qüdrətinə malikdir.
- Ünsiyyətçilik. Vahid dillə (Azərbaycan türkcəsi) və mədəniyyətlə vəhdət. Azərbaycançılıq dövlətçilik yolu ilə siyasi status alır və bu zaman aşağıdakı prinsipləri irəli sürür:
- Milli-siyasi özünüdərkə və siyasi şüurun təkamülünə yardım edir.
- İctimai münasibətləri sistemləşdirir, cəmiyyətin siyasi strukturlaşmasını təmin edir.
- Tarixi proseslərin xarakterinə istinadən dövlətin legitimliyini əsaslandırır.
- Cəmiyyətə uyğunlaşmır, onu yenidən yaradır, tarixi prosesləri izah edir və proqnozlaşdırır.
- Bütün bunlar əsasında uğurlu idarəçilik elmi kimi intensiv təkamül keçirir. Azərbaycançılığın iqtisadi əsasları bunlardır:
- Azərbaycanı xammal istehsal edən ölkədən, hazır məhsul istehsal edən ölkəyə çevirmək.
- Regional iqtisadi zonalar yaratmaq, keçmiş qeyri-səmərəli təsərrüfat sistemindən xilas olmaq.
- Milli sərvət üzərində sərt dövlət nəzarəti qoymaq,
- İqtisadi islahatları ümummilli marağın qorunmasına yönəltmək.
- Müəssisələri modernləşdirmək, iri korporasiyalar yaratmaq.
- Bazarı və valyutanı tənzimləmək.
- Dövlət mülkiyyətinin onun real dəyərindən aşağı satılmasını qadağan edən qanun qəbul etmək.
- İqtisadi müstəqilliyin hüquqi əsaslarını işləyib hazırlamaq. Bütün bunlar ümummilli iradəni möhkəmlədir. Bu isə dövlətçiliyin başlıca tələbidir. Azərbaycançılığın taleyi dünya azərbaycanlılarının vətənçilik müstəvisində birliyindən asılıdır.

Ümummilli lider Heydər ƏLİYEV demişdir: "Azərbaycanlılar hər yerdə böyük diaspor kimi yaşayırlarsa, qoy bir olsunlar, həmrəy olsunlar, bir-birlərinə kömək etsinlər".

***Vahid Ömərov f.ü.f.d. dos.***

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

4 sentyabr

SƏS

Son səhifə

## Ronaldo Xorvatiya ilə oyunu buraxa bilər



Futbol üzrə Portuqaliya millisinin futbolçusu Kriştiano Ronaldo yığmanın ümumi məşqini buraxıb. Qol.az Portuqaliya mətbuatına istinadən xəbər verir ki, 35 yaşlı hücumçunun sağ ayaq barmağında infeksiya olduğu üçün o, komanda ilə birlikdə hazırlıqda iştirak etməyib. "Yuventus"un oyunçusunun hazırda antibiotik müalicəsi aldığı bildirilib.

İtaliya mətbuatı isə Ronaldonun idman zalında məşq etdiyini yazıb. Onun Millətlər Liqasında sentyabrın 5-i keçiriləcək Xorvatiya ilə oyununda iştirakı sual altındadır.

## Messinin atası danışdı: "Oğlum "Barselona"da qalmır"



"Barselona"nın kapitanı Lionel Messinin atası Xorxe Messi ilə klub prezidenti Xosep Bartomeu arasında bir qədər əvvəl başa çatan danışıqların detalları məlum olub. Qol.az "Marca"ya istinadən xəbər verir ki, klub rəhbəri Messinin atasına oğlunun müqaviləsindəki "Barselona"dan gedə biləcəyinə aid bəndin müddətinin 10 iyun tarixində bitməsini israrla bildirib.

O, argentinalı hücumçunun klubun yeni layihəsi üçün əsas sima olduğunu və futbolçunun satılması üçün danışıq aparmayacaqlarını qeyd edib. Bartomeu Messinin etibarlı bir müqaviləsinin mövcudluğunu xatırladaraq, onun məşqə qayıtmalı olduğunu deyib. Messinin meneceri olan atası isə qarşı tərəfə bildirib ki, oğlu klubu tərk etməkdə israrlıdır.

Beləliklə, tərəflərin danışığı uğursuz nəticələnib. Xorxe Messinin görüşdən sonra İspaniya mətbuatına verdiyi qısa açıqlaması isə belə olub: "Oğlum "Barselona"da qalmır".

Qeyd edək ki, Britaniya mətbuatı Messinin "Mançester Siyi"yə keçəcəyini, hətta tərəflər arasında 5 illik müqavilə ilə bağlı razılıq əldə olunduğunu yazıb.

## "Yuventus"un futbolçusu sıradan çıxdı

"Yuventus"un və futbol üzrə İtaliya millisinin üzvü Federiko Bernardeski zədələnib. Bu barədə Turin klubunun rəsmi saytı məlumat yayıb. Ayaq əzələsindən zədələnən 26 yaşlı yarımmüdafiəçi 15 gün yaşıl meydanlardan kənarda qalacaq. Bu müddətdən sonra o, yenidən tibbi müayinədən keçiriləcək.



Bernardeski İtaliya millisinin UEFA Millətlər Liqasında sentyabrın 4-də Bosniya və Herseqovina və üç gün sonra Niderlandla keçirəcəyi oyunları buraxmalı olacaq.

## Bal arısının zəhəri süd vəzisi xərçəngi əleyhinə ən güclü vasitədir

Çox böyük ehtimalla, alimlər qadınlarda ən çox yayılan xərçəng xəstəliyi ilə mübarizə-
də köməklik edən səmərəli dərman əldə etməyə nail olacaqlar. Avstraliyanın Qarri Perkins
Tibbi Araşdırmalar İnstitutunun alimləri aşkar ediblər ki, bal arısı zəhərindəki bir maddə
döş xərçənginə qarşı "son dərəcə güclü" bir silah olaraq istifadə edilə bilər. SİA "nat-
geo.ru" saytına istinadla bildirir ki, kəşfin müəllifləri son bir neçə ildir arı zəhərinin tera-
pevtik potensialını araşdıran Siara Daffinin rəhbərlik etdiyi tədqiqatçılardır.

Alimlər əvvəllər arı zəhərindəki bəzi peptidlərin və zülalların qan beyin baryeri üzərin-
dən dərman vermək üçün istifadə ediləcəyini aşkar etmişlər. Ancaq Daffi və həmkar-
larının işi, melittin adlı bal arısı zəhərinin tərkibindəki maddəyə və onun döş xərçənginin
müxtəlif klinik alt növlərində hüceyrə ölümünə necə səbəb ola biləcəyinə yönəlmişdi. Daf-
fi izah edib: "Normal arı zəhərini normal döş hüceyrələri və klinik döş xərçəngi alt tipləri
üzərində test etdik: hormon reseptoru müsbət, HER2 (epidermal böyümə faktoru resepto-
ru) zənginləşdirilmiş və üçqat mənfi döş xərçəngi".

Komanda, arı zəhərinin müəyyən bir konsentrasiyasından xərçəng hüceyrələrinin yüz-
də 100-nün ölümünə səbəb olmaq üçün istifadə ediləcəyini, sağlam hüceyrələrin isə
zərərsiz qaldığını aşkar edib. Daffinin sözlərinə görə, melittin "xərçəng hüceyrələrinin
membranlarını 60 dəqiqə ərzində tamamilə məhv edir". Alimlər melittin necə işlədiyi ba-
rədə bir neçə maraqlı müşahidələr aparmışlar. Komanda, 20 dəqiqə ərzində birləşmənin
xərçəng hüceyrələrinin böyüməsi və çoxalması üçün istifadə etdiyi bəzi əsas siqnal yolla-
rını blokladığını aşkar edib. Melittinin bu reseptorların fəaliyyətini maneə törətməklə əsas
kimyəvi mesajları bağlamaq qabiliyyəti işdə əsas tapıntı idi.

Siara Daffi: "Bu, təbii birləşmələrin insan xəstəliklərini müalicə etmək üçün necə isti-
fadə ediləcəyinə dair daha bir gözəl nümunədir."

Komanda, eyni zamanda, sintetik melittin formalarını hazırlayıb və onu xərçəng hücey-
rələrinə qarşı sınaqdan keçirib. Sintetik melittinin təxminən eyni dərəcədə təsirli olduğu
təsbit edilib. Onun funksiyalarından biri də süd vəzisi xərçənginin hüceyrə membranlarını
deşməkdir, bu səbəbdən də alimlər xərçəng hüceyrələrinə çatmalarını asanlaşdıran kim-
yəvi terapiya dərmanları kimi mövcud xərçəng müalicələri ilə birlikdə istifadə ediləcə-
yini araşdırıblar. Daffi deyib: "Melittinin kiçik molekullarla və ya dosetaksel kimi kimyate-
rapiya dərmanları ilə yüksək aqressiv döş xərçəngi növlərini müalicə etmək üçün istifadə
ediləcəyini aşkar etdik. Melittin və docetaxel birləşməsi siçanlardakı şişin artmasını
azaltmaq üçün son dərəcə səmərəli idi".

İşin müəllifləri tədqiqatların yeni başladığını, lakin bal arısı zəhərinin döş xərçəngini
müalicə etmək üçün istifadə perspektivlərinin çox ümidverici olduğunu vurğulayıblar. Bu,
xüsusilə üçqat mənfi xərçənginə aiddir. Xəstəliyin yüzdə 15-də diaqnoz qoyulur, lakin süd
vəzisi xərçəngi ölümlərinin təxminən yüzdə 40-nı təşkil edir. Son vaxtlara qədər bu tip xər-
çəng xəstələri üçün yalnız kimyəvi terapiya göstərilmişdir.

## Keçmiş məhkum mağazadan oğurluq etdi

Mağazaların birindən oğurluq etməkdə şübhəli bilinən Ağdaş rayon sakini S.Məmmədov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Kəpəz RPİ əməkdaşları-



nın keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 31-də rayon ərazisindəki mağazaların birindən noutbuk və spirtli içki oğurlamaqda şübhəli bilinən Ağdaş rayon sakini, əvvəllər məhkum olunmuş S.Məmmədov saxlanılıb.

## Piyada yol qəzasında həyatını itirdi

Qaradağ rayonunun Ələt qəsəbəsi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, sentyabrın 2-də saat 20 radələrində Qaradağ rayonunun Ələt qəsəbəsi ərazisində Yardımlı rayon sakini O.Əliyev idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən Salyan rayon sakini Tamaşa Məlikovanı vurub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.



**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**